# VƏTƏNDAŞLIQ

## MÜƏLLİM KİTABI

### II HİSSƏ

**Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən 2022-ci ildə qrif verilmişdir.**




# 10

Nino Kapanadze, Nino Talaxadze

CEED
NƏŞRİYYATI

Vətəndaşlıq 10, II hissə
Onuncu sinif şagirdləri üçün müəllim kitabı
Tbilisi, 2022

Müəlliflər: Nino Kapanadze, Nino Talaxadze

Redaktor: Teona Bekişvili
Dizayner: İa Maxatadze
Texniki dizayner: Sofo Tarğaşvili

© CEED nəşriyyatı, 2022
Bütün hüquqlar qorunur

“CEED nəşriyyatı MMC”
Telefon: 599623610
İnternet səhifə: www.ceed.ge
El.poçt: info@ceed.ge
ceedgeorgia@yahoo.com
https://www.facebook.com/gamomcemloba sidi
Citizenship 10
Student’s Book
© Ceed Publishing, 2022
all rights reserved.
Tbilisi, Georgia, 2022
ISBN 978-9941-8-3927-6

**MÜNDƏRİCAT**

Dərsliyin konsepsiyası ........................................................................................................................................ 4

Müəllimə müraciət ............................................................................................................................................... 6

Üçüncü Nəsil Milli Tədris Planı (Fənn standartı – Vətəndaşlıq fənni)........................................................................ 7

Mövzu 2. Hüquq mədəniyyəti (Matris) .................................................................................................................. 10

Əlavələr................................................................................................................................................................ 74

**Dərsliyin konsepsiyası**

Bu kitab onuncu sinif üzrə Vətəndaşlıq fənninin şagird dərsliyinin ikinci hissəsi ilə cüt resursu təqdim edir, onun məqsədi müəllimə təlim-tədris prosesinin effektiv təşkilində yardım etməkdir.

Hər iki kitab məzmunca və metodiki cəhətdən orta pillənin Milli Tədris Planına, fənn standartının tələblərinə uyğundur.

Şagird kitabı onuncu sinfin ikinci mövzusu "Hüquq mədəniyyəti" "kontekstində qurulmuş uzunmüddətli məqsədlərə/hədəf anlayışlarına yönəlmiş aralıq məqsədlərini kompleks tapşırıqların şəklində və müvafiq fəallıqları təklif edir.

Şagird kitabında bu mövzuda seçilən məsələlər 13 paraqrafda təqdim olunur, paraqraflar 4 yarımfəsillərə - kompleks tapşırıqdan kompleks tapşırığa qədər bölünmüşdür.

Hər paraqraf həyat vəziyyəti/vəziyyətləri ilə, belə adlanan hadisələrlə və bunların müzakirələri ilə başlayır. Ardınca şagirdin analoji vəziyyətlərinin yada salınması/analizi, müzakirələr, qrupda və fərdi iş gəlir, bunlar da həm fənn məqsədlərinə, eləcə də makro anlayışlara, metakoqnitiv və funksional bacarıqların inkişafına yönəliblər.

Nəzəri məlumat orta, müxtəlif vizual vasitələrlə: fotolarla, sxemlərlə, diaqramlarla, infoqrafika ilə təqdim edilir və bu da qavranışı asanlaşdırır. Şagirdin müstəqil çıxartdığı nəticələr, ümumiləşdirmə və təklif edilən məlumat məsələni başa düşməkdə və biliklərin bütövləşdirilməsi prosesində dəstək verir.

Şagird kitabında onların kitaba yönəlməsinə yardım edən rubrikalar verilir. Təqdim edilən fəallıqların tam dəsti, modelləşdirmə səhnələri, debatlar, diskussiyalar dilemma təşkil edən məsələləri əhatə edir.

Bu hissədə də təkrar edirik, fəallıq dilemma vəziyyətinə aid olduqda, burada "dəqiq" cavablarımız yoxdur, "doğru" cavabların gözləntisi və ehtiyacı da yoxdur. Belə bir vəziyyət şagirdin tənqidi düşünməsi və dəlil gətirməsi, fərqli mövqelər üzrə düşüncə bacarığını inkişaf etdirməsi üçün çox yaxşı bir sahədir.

Ənənəvi olaraq, bütün yarımfəsillər **aralıq məqsədi ilə, eynilə kompleks tapşırıqlarla** başlayır və yarımfəsildə birləşdirilmiş paraqraflar bu aralıq məqsədinin əldə edilməsi üçün lazımi məlumatı, fəallıqları və əlavə resursları əhatə edir.

Həm Şagird, eləcə də Müəllim kitabında verilən tematik matrisdə 4 hədəf anlayışına yönəlmiş 4 aralıq məqsədi/kompleks tapşırığıdır. Bunlardan hər birinin matrisində fəallıqlar yazılmışdır. Davam edən islahat yeniliklərini nəzərə alaraq, matrisimizin də dizaynı dəyişib. Əlverişli istifadə üçün matris mündəricatla başlayır, birinci cədvəl şagirdin əldə edəcəyi hədəf biliyini/biliyin strukturunu əks etdirir. Müəllim konkret hədəf anlayışına hansı aralıq məqsədinin/kompleks tapşırığın yönəldiyini, hansı əsas məsələnin kontekstinin təklif edildiyini, hansı altanlayışı hədəflədiyimizi və hansı yarımməsələnin seçildiyini, eləcə də tapşırığın mövzunun hansı əsas

təsəvvürləri əhatə etdiyini aydın şəkildə görür. Bunu hər bir aralıq məqsədi üçün nəzərdə tutulmuş ikikomponentlik blok müşayiət edir. Birinci blok aralıq məqsədinin/kompleks tapşırığın strukturunu xırdalıqlarla və aydın şəkildə təqdim edir. İkinci blok isə kompleks tapşırığın şərtindən və onun yerinə yetirilmə tövsiyələrindən ibarətdir. Tövsiyələr tapşırığın yerinə yetirilmə mərhələlərində və ikinci mərhələdə addımlarla təqdim edilən qiymətləndirmə meyarlarına əsasən yazılmışdır. Resurslar öz fəallıqları və yönləndirici sualları ilə bu addımlara uyğunlaşdırılmışlar.

Vaxtaşırı suallar blokunun sonunda prosedur biliyinə yönlənmiş tündləşdirilmiş suallara təsadüf edəcəksiniz və bunlar da şagirdi alınan məlumatdan və nəticələrdən konkret addımda və yerinə yetirilən tapşırıqda istifadə etməyə düşündürür. Tematik matrisdə bütün komponentlər əyani yığılır və müəllim üçün prosesin təşkilini asanlaşdırır. Bəzi fəallıqları kiçik tövsiyələr müşayiət edir, bunlar da məsələni dəqiqləşdirir və ya alternativ fəallığı təklif edirik.

Əlbəttə ki, siz prosesin əsas aparıcısı olaraq qalırsınız və sizin şərhləriniz bu resurs üçün yeni həyat verir...

Çoxlu informasiya resursu verilir, əlavə resursların elektron linkləri göstərilir ki, bunlarsız da dərs prosesini təsəvvür etmək mümkün deyil.

İnternetə əlçatma məhdud olanda da, bu kitabın əlavələrində tapşırıq məhsullarının kiçik təsvirlərinə rast gəlmək olar və məhsulun mahiyyətini anlamaqda bunu şagirdlə paylaşa bilərsiniz. Daha çox məlumat üçün isə keçidləri izləyə bilərsiniz.

Hər növ aralıq məqsədi/**kompleks tapşırıq üçün** Əlavələrdə Milli Tədris Planının nəticələrinin əldə edilməsi taksonomiyası əsasında hazırlanmış inkişafetdirici qiymətləndirmənin köməkçi aləti verilir. Bununla da konkret məsələ ilə münasibətdə hədəf anlayışının dərk edilməsi səviyyəsi təsvir edilir. O, müəllimə şagirdin nailiyyətlərini analiz etməkdə yardım edir.

Alət sizə yardım edəcəkdir ki, şagirdə **inkişafetdirici şərhdə yuxarı səviyyənin təsvirinə əsasən** dəqiq və konkret məsləhət verəsiniz ki, əldə edilən səviyyədən növbəti səviyyəni əldə etmək üçün hansı addımlar atılmalıdır. Dörd tapşırığın tövsiyələrinin sonunda müvafiq vasitənin əlavəsinin nömrəsi və səhifəsi verilir.

**Uğurlar arzulayırıq!**

**Salam, əziz müəllim!**

Onuncu sinfin "Vətəndaşlıq" fənninin Şagird dərsliyinin ikinci hissəsinə uyğun "Müəllim kitabı" ümumi təhsil islahatının çərçivəsində cari proseslərdə sizin dəstəyinizlə yaradılmışdır.

Üçüncü Nəsil Milli Tədris Planına əsasən, orta pillənin onuncu sinfinin ikinci semestrində bir mövzu təklif edilir – hüquq mədəniyyəti. Müəllimin kitabı da bu mövzuya həsr edilir.

Ümumi təhsili milli məqsədləri, məktəbin qarşısına demokratik dəyərlərlə və vərdiş-bacarıqlarla təmin edilmiş vətəndaşın tərbiyə edilməsi məsələsini qoyur. Belə bir vətəndaş da qeyd-şərtsiz hüquq mədəniyyətinin daşıyıcısı olmalıdır. Hüquqi dövlətin yaradıcısı vətəndaşların özləridir. Onlar ədalətli seçimlə hakimiyyəti seçməli və sonra ondan Konstitusiyaya uyğun və qanuni əməllər tələb etməli və özləri də qanun-qayda çərçivəsində hərəkət etməlidirlər. Bu birgə məsuliyyətin dərk edilməsi isə müəyyən bilik və analiz tələb edir. Siz, müəllimlər sinif otağında konkret kompleks tapşırıqlardan, konkret fəallıqlardan, dilemmalı vəziyyətlərdən istifadə edərək, şagirdə uzunmüddətli məqsədlərlə bağlı hüquqi biliyi ötürməli və hüquq mədəniyyəti üçün vacib vərdiş-bacarıqları da qazandırmalısınız.

Müəllim kitabı bu prosesin aparılmasının bir variantını təklif edir.

Bunun gözləntilərinizi doğruldacağına ümid edirik.

Məhz bu dərsliyi seçdiyiniz üçün təşəkkür edirik!

**Üçüncü Nəsil Milli Tədris Planı (Fənn standartı – Vətəndaşlıq fənni)**

**Həftədə 2 saat tədris edilir, ildə 72 saat**

**İctimai elmlər orta pillə**

**c) Vətəndaşlıq**

**Giriş**

Kurs orta pillənin şagirdləri üçün nəzərdə tutulmuşdur. Kurs çərçivəsində baza pilləsində vətəndaşlıq üzrə əldə edilən bilik genişlənir və dərinləşdirilir.

Standartda nəticələrin və hədəf anlayışları şəklində uzunmüddətli məqsədlər müəyyənləşdirilmişdir.

Məzmun mövzuların (yarımmövzuların), məsələlərin və yarımanlayışlar şəklində təsvir olunur. Milli Tədris Planı icbari mövzuları müəyyənləşdirir. Mövzulara uyğun məsələləri isə məktəblərin özləri seçirlər.

Hər bir mövzunu nəticələrin əldə etmə indikatorları müşayiət edirlər. Onlar təlim-tədris prosesinin nə ilə qiymətləndirilməsini müəyyən edirlər. İndikatorlar hədəf anlayışlarına əsasən qruplaşdırılıb.

**Pillənin nəticələri**

Orta pillədə standartda yazılmış nəticənin əvvəlində indeks gəlir. O, fənni, tədris mərhələsini və standart nəticəsinin nömrəsini göstərir; Məs., **Vət. ort.seç.1**:

"**Vət**." – "Vətəndaşlıq" fənnini göstərir;

"**ort**." – orta pillə deməkdir;

"**1**" – standartın nəticəsinin nömrəsini bildirir.

| **Vətəndaşlıq standartının nəticələri orta pillədə** | | |
|---|---|---|
| **Nəticələrin indikatorları** | | **Hədəf anlayışı** |
| | **Şagird bacarmalıdır:** | |
| **Vət.ort.1** | Qərarları qəbul etdikdə və müvafiq hərəkəti yerinə yetirdikdə, hüquqi sənədləri (o cümlədən, Gürcüstan Konstitusiyası, İnsan Hüquqlarının Ümumi Bəyannaməsi, Uşaq Hüquqları Konvensiyası) nəzərə almağı; | **Cəmiyyət** (şəxsiyyət, fərd, sosiallaşma) (Vət.ort.1,2,4)<br><br>**Demokratiya** (*insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri*) (Vət.ort. 1,2,3,4)<br><br>**Vətəndaş məşğulluğu** (Vət.ort. 2,4)<br><br>**Dayanıqlı inkişaf** (vət. ort.3) |
| **Vət.ort.2** | Cəmiyyət üçün aktual qlobal və yerli sosial-siyasi problemləri tanımağı və demokratiya prinsiplərini nəzərə almaqla özünü cəlb etməklə onların düzəlişinə qayğı göstərməyi; | |
| **Vət.ort.3** | Dayanıqlı inkişaf prinsiplərini anlayaraq hərəkət etməyi (o cümlədən gündəlik və fövqəladə (təbii və texnogen səbəblərdən irəli gələn) vəziyyətdə təhlükəsizlik qaydalarına əməl etməklə hərəkət etməyi); | |
| **Vət.ort.4** | Müxtəlif maraq qrupları və dövlət qurumları ilə əməkdaşlıqla cəmiyyətdə pozitiv dəyişikliklərə yönəlmiş ideyaları lobbiləşdirməyi və advokatlaşdırmağı. | |

**İcbari mövzular:**

| |
|---|
| **X sinif** |
| 1. Qlobal vətəndaşlıq |
| 2. Hüquq mədəniyyəti |
| **XI sinif** |
| 3. Sahibkarlıq və biznes |
| 4. Siyasət və siyasi mədəniyyət |
| **XII sinif** |
| 5. Gürcüstan və qloballaşma |
| 6. Qlobal iqtisadiyyat və Gürcüstan |

Tövsiyə edilir ki, təlim-tədris prosesində məktəblər mövzuların yuxarıda təklif edilən ardıcıllığına əməl etsinlər.

**İcbari mövzuları və qiymətləndirmə indikatorlarını birləşdirən cədvəllər**: hər bir cədvəldə mövzunun adı, onun təsviri və qiymətləndirmə indikatorları verilir və bunlarda da konkret mövzuda nəticələrin necə həyata keçdiyi göstərilir.

**X sinif**

| |
|---|
| **Mövzu 2. Hüquq mədəniyyəti**<br>Mövzu hüquq mədəniyyətinin formalaşması üçün mühüm aspektlərin (qanuna riayət etmə, insan hüquqlarının tanınması) öyrənilməsini, konkret mexanizmlərin, nümunələrin və ədalətə istinad edən mexanizmlərin qüvvəyə minməsi ilə konkret problemlərin həllinin (məsələn, zorakılığın qarşısının alınması, kibertəhlükəsizliyin təmin edilməsi və s.) necə baş verdiyinə dair dilemmaların təhlilini nəzərdə tutur. |
| **Mövzu çərçivəsində hədəf anlayışlarına əsasən nəticələrin əldə edilməsi meyarları:**<br><br>**Cəmiyyət –** şagird bacarmalıdır:<br>• Cəmiyyətdə hüquq mədəniyyətinin bərqərar edilməsinə imkan yaradan/mane olan mövcud problemləri aşkarlamağı və analiz etməyi;<br><br>**Demokratiya** – şagird bacarmalıdır:<br>• Hüquqi dövlətin xüsusiyyətlərinin, ədalət sistemi və insan hüquqlarının müdafiə mexanizmlərini demokratiya prinsipləri kəsiyində analiz etməyi;<br><br>**Vətəndaş məşğulluğu** – şagird bacarmalıdır:<br>• Hüquq mədəniyyətinin bərqərar olmasına dəstəyin verilməsi üçün vətəndaşın fərdi rolunu və konkret fəallıqlarını müəyyənləşdirməyi;<br>**Dayanıqlı inkişaf -** şagird bacarmalıdır:<br>• Hüquq mədəniyyəti ilə bağlı problemləri və dilemmaları müzakirə etdikdə, dayanıqlı inkişaf prinsiplərini nəzərə almağı. |

## Mövzu 2. Hüquq mədəniyyəti

**Hədəf biliyi/biliyin strukturu**, şagird bunu mövzu çərçivəsində əldə etməlidir **(bax, səh. 11)**

**Aralıq məqsədi 1.**

- Aralıq məqsədinin strukturu **(bax, səh. 14)**
- Kompleks tapşırığın şərti; kompleks tapşırığın yerinə yetirilməsi üçün tövsiyələr **(bax, səh. 16)**

**Aralıq məqsədi 2.**

- Aralıq məqsədinin strukturu **(bax, səh. 31)**
- Kompleks tapşırığın şərti; kompleks tapşırığın yerinə yetirilməsi üçün tövsiyələr **(bax, səh. 33)**

**Aralıq məqsədi 3.**

- Aralıq məqsədinin strukturu **(bax, səh. 48)**
- Kompleks tapşırığın şərti; kompleks tapşırığın yerinə yetirilməsi üçün tövsiyələr **(bax, səh. 49)**

**Aralıq məqsədi 4.**

- Aralıq məqsədinin strukturu **(bax, səh. 61)**
- Kompleks tapşırığın şərti; kompleks tapşırığın yerinə yetirilməsi üçün tövsiyələr **(bax, səh. 62)**

**İnkişafetdirici qiymətləndirmə**

- İnkişafetdirici qiymətləndirmə üçün alətlər, Əlavə 1 **(bax, səh. 74)**
- Müəllim üçün öyrənilən məsələlərlə bağlı əlavə məlumat, Əlavə 7 **(bax, səh. 85)**

<table>
<tr><td colspan="3">Mövzu: Hüquq mədəniyyəti</td><td colspan="2">Saatların təxmini sayı – 36</td></tr>
<tr><td colspan="5">Hədəf biliyi/biliyin strukturu, şagird bunu mövzu çərçivəsində əldə etməlidir</td></tr>
<tr><td>Hədəf anlayışı</td><td>Altanlayış</td><td>Mövzu çərçivəsində nümunə/altməsələlər</td><td>Transfer sahəsi/hə/yox nümunələri</td><td>Mövzu ilə bağlı əsas təsəvvürlər (mövzu çərçivəsində ümumiləşdirmələr)</td></tr>
<tr><td>Demokratiya<br>(insan hüquqları, hüquqi sənədlər, demokratiya prinsipləri)<br>(Vət.ort.1,2,3,4)</td><td>Demokratiya prinsipləri</td><td>Hüquqi dövlət</td><td>Müxtəlif ölkələrin hüquq-mühafizəkarlarının və sıravi vətəndaşlarının qanunun aliliyi prinsipinə riayət etmə arzuları hüquqi dövlətdə həyatla bağlıdır (hə nümunəsi).<br>Prokurorun epizodu – vəzifəli şəxs sürücünü qanundan yan qaçmağa təkan verir (yox nümunəsi)</td><td>• İnsan hüquqları və əsas hüquqi sənədləri bilmək və nəzərə almaq hüquqi dövlətin, hüquq mədəniyyətinin əsasıdır;<br>• Hüquqi dövlətdə hakimiyyət də, vətəndaşlar da Konstitusiyaya və başqa qanunlara uyğun hərəkət etməli və bunun üçün bunları bilməlidirlər.</td></tr>
<tr><td>Cəmiyyət<br>(Şəxsiyyət, fərd, sosiallaşma)<br>(Vət.ort.1,2,4)</td><td>Şəxsiyyət, fərd, insan tələbatları və ehtiyacları;<br><br>İctimai qruplar</td><td>Vətəndaş cəmiyyəti</td><td>“Ləyaqətli Əmək Platforması” vətəndaş hərəkatı əmək hüquqlarını müdafiə etmək üçün cəmiyyətin fərdə necə qayğı göstərə biləcəyini və qurumlara necə təsir edəcəyini göstərir (hə nümunəsi);<br>Piyadalar və sürücülər küçədə hərəkət qaydalarını necə pozurlar və bu da şəxsiyyət və cəmiyyət üçün nə kimi risklər yaradır, çünki hüquqi mühiti dəyişir (yox misalı)</td><td>• Qanun hamı üçün qərəzsiz və ədalətli şamil edilməlidir və cəmiyyət, vətəndaşlar qanuna tabe olmalıdırlar;<br>• Hüquq mədəniyyətinə malik cəmiyyət bilir ki, qanun insanın ən yaxşı mənafeyini qoruyur, buna görə də özü bu qanunlara əməl edir və qanunu pozanlara qarşı dözümsüzdür.</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| **Vətəndaş məşğulluğu (Vət.ort.2,4)** | Könüllülük, maarifləndirilmənin artması üçün advokatlaşdırma | Hüquq mədəniyyətinin iştirakçıları | Gürcüstan məhkəməsi tərəfindən uşağın hüquqlarının müdafiəsinin təmin edilməməsi (yox nümunəsi);<br>Vətəndaşlar ədalət məhkəməsi - ədalətin müdafiəsi prosesində andlı kimi iştirak edirlər (hə nümunəsi)<br>BMT-nin Uşaqlar Komitəsi ədaləti bərpa edir (hə nümunəsi) | • Vətəndaş hüquq mədəniyyətinin bərqərar edilməsində şəxsi məsuliyyətini dərk edir;<br>• Fəal vətəndaşlar cəmiyyətin maariflənməsinin qayğısına qalırlar ki, vətəndaşlar insan hüquqlarının yerli və beynəlxalq mexanizmlərini bilsinlər və bunlardan istifadə etsinlər; |
| **Dayanıqlı inkişaf (Vət.ort.3)** | Dayanıqlı inkişafın məqsədləri | 16-cı məqsəd: sülh, ədalət, güclü qurumlar | Azyaşlılar tərəfindən silahın istifadəsi ilə və ətraf mühitin müdafiəsi ilə bağlı qanunların pozulması və azyaşlıların ədalət məhkəməsi (hə və yox nümunələri);<br>Uotergeyt qalmaqalı – Niksonun istefası – güclü qurumlar - ədalətli qərar (hə və yox nümunələri) | • Qanuna riayət etmə qlobal nəticələrlə bağlı olan yerli əməlləri nəzərdə tutur;<br>• Qanunu pozan azyaşlılar üçün inkişaf imkanının saxlanması yeniyetmənin gələcək perspektivinə və vətəndaş təhlükəsizliyinə (qeyri-zorakı cəmiyyətin formalaşması) qayğının göstərilməsidir. |

## Aralıq məqsədi 1.

## Aralıq məqsədinin strukturu

<table>
<tr><th>Əsas məsələ</th><th>Məhsul</th><th>Müzakirə ediləsi hadisə/nümunə</th><th>Əsas sual</th><th>Dərslik/əlavə resurslar</th></tr>
<tr><td>Hüquqi dövlət</td><td>İki cədvəl/sxem və məsələ ilə bağlı düşündürücü suallar;</td><td>Hüquqi dövlət</td><td>• Cədvəldə/sxemdə hüquqi və qeyri-hüquqi dövlətin xüsusiyyətlərini və nümunələrini necə göstərə bilərəm?<br>• Hüquqi dövlətin qarşısındakı dilemmalar və onlarla ayaqlaşma yolları üzrə həmyaşıdlarımı hansı suallar düşündürə bilər?</td><td>Paraqraf 1. Gürcüstan - hüquqi dövlət, səh. 7<br>Paraqraf 2. Dövlət və vətəndaş; səh. 22<br>Paraqraf 3. Hüquqi dövlət və vətəndaş cəmiyyəti, səh. 30<br>Paraqraf 4. Hüquqi dövlət və konstitusionalizm, səh. 36<br><br>Gürcüstan Konstitusiyası, Maddə 4; İkinci fəsil<br><br>https://matsne.gov.ge.ka/document/view/30346?publication=36</td></tr>
<tr><th colspan="3">Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər<br><br>Şagird dərk etməlidir ki:</th><th>Qiymətləndirmə meyarları<br><br>Şagird bacarır:</th><th>Kompleks tapşırığa nisbətən konkretləşdirmə<br><br>İşinizdə/işin təqdimatında xüsusilə göstərməlisiniz:</th></tr>
<tr><td colspan="3">Demokratiya<br><br>1. Hər bir insan özünün dəyərləri və hüquqları ilə azad və bərabər doğulur,;<br>2. İnsanın mülki-siyasi, sosial-iqtisadi və kollektiv hüquqları var; Gürcüstan Konstitusiyası və beynəlxalq sənədlər (Bəyannamələr, konvensiyalar) bu hüquqların müdafiəsini təmin edir;<br>3. Demokratik cəmiyyətdə/dövlətdə insan hüquqları başlıca dəyərdir;<br>4. Demokratiya təməli prinsiplərə əsaslanır (bərabərlik, qanunun aliliyi, şəffaflıq, hakimiyyət bölgüsü, ədalətli seçkilər, məsuliyyət, inklüzivlik, qeyri-zorakı metodlarla hərəkət, tolerantlıq), bunlara əməl etmədən demokratik dövlət fəaliyyət göstərə bilməz.</td><td>• Hüquqi dövlətin müvafiq hüquqi normaları nəzərə alaraq insan azadlıqları və dəyərlərini, insan hüquqlarının müdafiəsi üçün öz səylərinə müraciət etməsini analiz etməlidir.<br>• Müzakirə etməlidir ki, nə üçün vətəndaş cəmiyyətinin özünün və başqalarının hüquqlarını bilməsi vacibdir və nə üçün dövlət onların müdafiə mexanizmlərini işə salmalıdır.<br><br>• Hökumət və cəmiyyətin hər hansı bir seqmentinin</td><td>• Hüquqi/qeyri-hüquqi dövlət qərarları, əməlləri insan azadlığına, bərabərliyinə, ləyaqətinə hörmət edilməsinə nə qədər uyğundur? (Əs.təs.1.3)<br><br>• Hakimiyyət tərəfləri, vətəndaşlar Gürcüstan Konstitusiyasını, qanunları, beynəlxalq sənədləri və onlarda təsvir edilən insan hüquqlarını necə nəzərə alırlar? Nümunələrlə əsaslandırın. (Əs.təs.2)<br><br>• Vətəndaş cəmiyyətinin, sıravi vətəndaşların hüquqi/qeyri hüquqi davranışı müxtəlif hökumət qollarına, dövlətdə demokratiya prinsiplərinin əməl edilməsinə (bunların hər biri ilə münasibətdə müxtəlif prinsip üzrə danışa bilərsiniz) və demokratiyanın səviyyəsinə nə kimi təsir göstərir? Nə üçün? (Əs.təs.4)</td></tr>
</table>

| | | |
|---|---|---|
| | fəaliyyətində demokratiya prinsiplərinin müdafiəsi zərurətini müzakirə etməlidir. | |

**Kompleks tapşırığın şərti:**

Təsəvvür edin ki, siz vətəndaşlıq fənninin müəllimisiniz və onuncu sinif şagirdlərinə hüquqi dövlət haqqında danışmalısınız. Əyanilik üçün aşağıdakıların əks olunduğu **iki cədvəl/sxem** hazırlayın

1. Hüquqi dövlətin xüsusiyyətləri və müvafiq həyat nümunələri.
2. Qeyri-hüquqi dövlətin xüsusiyyətləri və müvafiq həyat nümunələri.

Cədvəllərə "şagirdləri" hüquqi dövlət qarşısında mövcud dilemmalar və onların həlli yolları barəsində düşündürəcək **3-4 sual** əlavə edin.

**İşinizdə/işinizin təqdimatında xüsusilə göstərməlisiniz:**

• Hüquqi/qeyri-hüquqi dövlət qərarları və hərəkətləri insan azadlığına, bərabərliyinə və ləyaqətinə hörmətlə necə uyğun gəlir? Nümunələri adlandırın. **(Əs.təs.1.3)**
• Hökumət partiyaları, vətəndaşlar Gürcüstan Konstitusiyasına, qanunlara, beynəlxalq sənədlərə və onlarda öz əksini tapmış insan hüquqlarına necə baxırlar? Nümunələrlə əsaslandırın. **(Əs.təs.2)**
• Hökumətin müxtəlif qollarının, vətəndaş cəmiyyətinin, sıravi vətəndaşların hüquqi/qeyri-hüquqi davranışları dövlətdə demokratiya prinsiplərinin qorunmasına (hər biri ilə münasibətdə müxtəlif prinsiplərdən danışmaq olar) və demokratiyanın keyfiyyətinə necə təsir edir? Nə üçün? **(Əs.təs.4)**

**Kompleks tapşırığın həyata keçirmə mərhələləri (fəallıqlar, resurslar, suallar)**

**I mərhələ - kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurslar/təhlil ediləsi vəziyyətlər:**

- **Resurs 1.** Dərslik, Hüquqi Dövlət, Kompleks tapşırığın şərti, səh. 6
- **Resurs 2.** Word – cədvəllərin yaradılması, cədvəlin dizayn menyusu https://www.youtube.com/watch?v=dCW8GHgji_8
- **Resurs 3.** Microsoft Word-da mütəşəkkil sxemi necə yaradaq https://www.windowsnoticias.com/ka/como-crear-un-organigrama-en-microsoft-word/

**Kompleks tapşırığın şərtinin anlayışına yönəlmiş suallar:**

- Cədvəl nədir? Sxem? Hansı ortaq cəhətləri var? Onların arasında hansı fərqlər var?
- Dərsliyi nəzərdən keçirin və cədvəlləri və sxemləri tapın. Onlar haqqında nə deyə bilərsiniz? (Cədvəllər səh. 13,25,53, 71... Sxemlər səh. 12,32,39,72,75,101....)
- Məzmunlu məlumatların cədvələ köçürülməsi informasiya qavrayışını, iki informasiyanın müqayisə edilməsini nə qədər yaxşılaşdırır? İzah edin ki, nə üçün?
- Ayrı vaxt analoji məhsul yaratmısınızmı? Cədvəldə hansı məlumatları əks etdirməlisiniz?
- Birinci sütuna hansı məlumatları yazmalısınız?
- Birinci sütuna yazılan məlumatların sayı və sətirlərin sayı arasında hansı münasibət olacaq?
- Cədvəlin birinci sətrinin qrafalarında hansı məlumatlardan istifadə edəcəksiniz? Cədvəlin belə adlanan rubrikaları nə olacaq?
- Neçə sütunlu və neçə sətirli cədvəl quracağımızı müəyyənləşdirmək üçün hansı məlumatlar lazım olacaq?
- Cədvələ daxil edəcəyimiz mətnin üzərində necə işləyək? Geniş olmalıdır və ya qısa, lakonik? Nə üçün?
- Müqayisə üçün iki cədvəl hazırladıqda, eyni məlumatlar/rubrikalar lazım olacaqmı? Nə üçün?
- Sizcə, tapşırıqda verilən məzmunun vizuallaşdırılması üçün cədvəldən istifadə etmək yaxşıdır və ya sxemdən? Nə üçün?
- Nəyinsə üzərində düşündürən, bizdən nəyinsə təhlilini tələb edən sualı necə tərtib edirik? Nümunələri adlandırın.
- Dilemma nədir? Nümunəni adlandırın.

**Kompleks tapşırıq**

- Öz sözlərinizlə formalaşdırın ki, bu gün verilən və bir neçə dərs ərzində üzərində işləyəcəyiniz tapşırıq nəyə aiddir?
- Başqa vaxt oxşar formada və ya məzmunda tapşırıq yerinə yetirmisinizmi?

**Müəllimə tövsiyə**: şagirdlərə izah edin ki, özləri tapşırığın materialını və onu yerinə yetirmə formasını (elektron/maddi) seçə bilərlər; məsləhət verin ki, məzmun tərəfini anladıqdan və məlumatı ayıra bildikdən sonra cədvəldə və ya sxemdə işə başlasınlar. Onu da izah edin ki, kompleks tapşırığın meyarlarına cavab olaraq, cədvəldən və sxemdən başqa, düşündürücü suallar hazırlamalı və təqdimat zamanı izahatlar da verməlidirlər.
Təqdimat isə hər bir şagird üçün məcburidir.

## II mərhələ - kompleks tapşırıq üzərində iş

**Hədəf anlayışı** – demokratiya; **yarımməsələ**: hüquqi dövlət

**Addım 1.**
**• Hüquqi/qeyri-hüquqi dövlət qərarları və hərəkətləri insan azadlığına, bərabərliyinə və ləyaqətinə hörmətlə necə uyğun gəlir? Nümunələri adlandırın. (Əs.təs.1.3)**

**Resurs**:
1. Dərslik, Gürcüstan – Hüquqi dövlət, səh.7
2. Gürcüstan Konstitusiyası, birinci və ikinci fəsil; https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

**Şagird kitabında verilən faydalı resurslar:**
Konstitusiya nədir? https://bit.ly/3cfDYIA
Hüquqi dövlət və qanunun aliliyi https://bit.ly/3IOGZvH
İnsan azadlıqları https://bit.ly/3nXfBBN https://bit.ly/3b6U32L
Qısa XX əsr - 1933. Nasist Almaniyasının yüksəlişi https://bit.ly/3fhQYyS
Bəşər tarixində on ən qəddar hakim https://bit.ly/3LGo3Am

**Fəallıq:** sual-cavab (öncəki biliyin aktivləşdirilməsi)

Şagirdlər Konstitusiyanın dördüncü maddəsini yada salmaqla/tanış olmaqla hüquqi dövlətin xüsusiyyətlərini sadalayırlar.

**Fəallıq**: müzakirə edin, səh. 7

**Suallar**:

Aşağıdakı məqaləni oxuyun və suallara cavab verin:
• Martin Lüter Kinqin vətənində məşhur çıxışından sonra hüquqların müdafiəsi istiqamətində nə dəyişdi?
• Sizcə, hansı hüquq müdafiəçisinin arzusu hüquqi dövlət anlayışı ilə bağlıdır? Hüquqi dövlətin nə demək olduğunu xatırlayın;
• Hüquqi dövlət hüquq müdafiəçilərinin arzularını necə həll edə bilər?
• Müasir hüquq müdafiəçilərinin ümumi arzuları nədir?
• Martin Lüter Kinqin analogiyası ilə arzunuz nədir? Bu gün onu necə yerinə yetirə bilərsiniz?

• Təsəvvür edin ki, siz aşağıda qeyd olunan hüquq müdafiəçilərindənsiniz. Bu arzunuzun ölkənizdə gerçəkləşməsi üçün nə edərdiniz?

**Fəallıq**: əqli hücum;

• Vətəndaşlar hansı dövlətdə yaşamaq istəyirlər? Siz?;
• Bu istəklər insanın hüquq və azadlıqları ilə necə əlaqələnir? Nümunələr gətirin;

**Fəallıq:** müzakirə edin, səh. 10

Fəallıq: **cütlüklərdə işləyin** (hüquqi dövlətin "portretinin" yaradılması), səh. 9

Şagirdlər konstitusiyanın dördüncü maddəsini, ikinci fəslini, insan hüquqlarının ümumi bəyannaməsini xatırlayaraq/tanış olaraq, eyni zamanda hüquqi dövlətin xüsusiyyətlərini yada salır və istənilən dövlətin "portretini" yaradırlar;

**Sual**:

Necə düşünürsünüz, vətəndaşların əksəriyyətinin dəstəyi xaricində qanunun aliliyi prinsipini həyata keçirmək olarmı? Nə üçün?

**Fəallıq**: mətn üzərində iş (fəallıq Şagird kitabında yoxdur)
Təlimat: səh.13-də verilən son abzasla və səh. 14-də verilən "Bu, maraqlıdır" ilə tanış olun və suallara cavab verin:

- Qanunun aliliyi hüquqi dövlətin mövcudluğunun zəmanətidirmi?
- Qanunlar "əjdahalar" tərəfindən tərtib edildikdə, nə baş verir? Nə üçün?

**Fəallıq**: müzakirə edin; səh. 15

**Suallar**:
Hüquq mədəniyyətinə malik cəmiyyətin özünün xarakterik əlamətləri var. Müzakirə edin:
• Məktəbinizin icmasında hüquqi mədəniyyət varmı?
• Cəmiyyət üzvləri qaydaların və qanunların çoxunu bilirmi?
• Cəmiyyətdə qayda və qanunların öyrənilməsinin yol və vasitələri varmı?
• Cəmiyyətin əksəriyyəti qanunlara tabe olmaq istəyirmi?
• Pozuntulara qarşı məcburetmə və cəza tədbirləri mövcuddurmu?
• Cəmiyyət qurbana rəğbət bəsləyir, həm də cinayətkarı tərbiyələndirmək istəyirmi?
• Cəmiyyətin əksəriyyətinin cinayətə münasibəti mənfidirmi?

• Qaydaların/qanunların dəyişdirilmə/təkmilləşdirilmə sistemi mövcuddurmu?

**Fəallıq**: müzakirə edin, səh. 16

**Fəallıq**: qruplarda işləyin, səh. 18

İki dövləti təsəvvür edin ki, bunlardan da birində dövlət hökuməti üç qola bölünüb, ikincidə isə hakimiyyət bir şəxsin və ya qrupun əlində cəmləşib. Aşağıda verilən cədvəli vərəqə köçürün və aşağıdakı cədvəldə hüquqi mühit nöqteyi-nəzərindən hər iki dövlətin üstünlüklərini və nöqsanlarını yazın.

**Suallar:**

• Hakimiyyətin hər bir qolu ədalətli dövlətin xüsusiyyətini qoruyub saxlamaq üçün necə hərəkət etməlidir?
• Onların insan azadlığına, bərabərliyə, ləyaqətə və hüquqlara münasibəti necə olmalıdır?
• Onlar necə hərəkət edirlər?

| Dövlət hakimiyyəti üç qola bölünüb | Dövlət hakimiyyəti bir şəxsiyyətin/qrupun əlindədir |
|---|---|
| | |
| | |

**Fəallıq**: Müzakirə edin; səh. 19

**Fəallıq**: qruplarda işləyin, səh. 19

**Suallar**:

Hüquqi dövlətin formalaşmasında iştirak edən 4 tərəfi (hakimiyyətin 3 qolunu və medianı) ayırın. Bu sayda qruplara bölünün və növbəti sualları nəzərə alaraq prezentasiyalar hazırlayın:
• Tərəfiniz hüquqi dövlətin formalaşmasında hansı töhfəni verir və necə? Bir nümunə gətirin.
• Tərəfinizin mövcud dəyərləri, yanaşmaları, fəaliyyəti demokratik, hüquqi dövlətin tələblərinə nə dərəcədə cavab verir;
• Daha yaxşı reallığa nail olmaq üçün nəyi və necə təkmilləşdirmək lazımdır?
• Siz nə edə bilərsiniz? Digər qollara nəyi tövsiyə edərdiniz?

**Müəllimə tövsiyə**: Şagirdlərin özlərinin hüquqi dövlətin təşkilinə təsir edən amilləri ayırması yaxşı olardı ki, bu da öncəki "Cütlüklərdə işləyin" fəallığına xidmət edir. Məhz həmin mərhələdə siyahı lövhəyə və ya vərəqə köçürülməli və sonra da müzakirə ilə 4-5 əsas amil ayrılmalıdır (məsələn, geniş cəmiyyətin iştirakı ilə ədalətli qanunların işlənilməsi və qəbulu; qanunun aliliyi prinsipinə əməl etmə; müstəqil məhkəmə; hüquqi şüurun yüksəldilməsi, təhsil və s.)

**Fəallıq**: Yekunlaşdırma

**Sual:**

**Kompleks tapşırığın məhsullarında alınan məlumatı və nəticələri necə əks etdirəcəksiniz?**

- **Addım 2 Hakimiyyət tərəfləri, vətəndaşlar Gürcüstan Konstitusiyasını, qanunları, beynəlxalq sənədləri və onlarda təsvir edilən insan hüquqlarını necə nəzərə alırlar? Nümunələrlə əsaslandırın. (Əs.təs.2)**

**Resurs: 1. Dərslik, Dövlət və vətəndaş, səh.22**
**2.Gürcüstan Konstitusiyası, ikinci fəsil; https://matsne.gov.ge/ka/document/view/30346?publication=36**
**3. İnsan hüquqlarının ümumi bəyannaməsi** http://www.parliament.ge/uploads/other/137/137343.pdf

**Müəllimə tövsiyə:** bütün fəallıqların, xüsusilə də vəziyyətlərin üzərində işlədikdə, şagirdlərdən qəhrəmanların Konstitusiya, başqa qanunlar üzrə biliyi büruzə verib-vermədiklərini, qanun pozuntusu ilə hansı münasibətlərinin olduğunu təhlil etməyi xahiş etmək olar.

**Fəallıq: Əqli hücum** (öncəki biliyin aktivləşdirilməsi üçün)

**Suallar:**

- Mədəniyyət nədir? Hüquq mədəniyyəti anlayışını necə izah edərsiniz?
- Hüquq mədəniyyətini kim/nə yaradır? Nümunə gətirin.
- Hüquq mədəniyyətinin indikatoru kimi nəyi təsəvvür edirsiniz? Hüquq mədəniyyətinin olduğunu/olmadığını nəyin əsasında deyə bilərsiniz?

**Fəallıq**: qruplarda işləyin; (**bu fəallıq Şagird kitabında yoxdur**)

Hüquq mədəniyyəti haqqında informasiya ilə tanış olun, sxemdə "hüquq mədəniyyətinin komponentlərini" təsvir edin, sinfə təqdim edin.

**Müəllimə tövsiyə**: bu qrup işi tapşırığın məhsulununun forması (cədvələ) və məzmununun bir-biri ilə əlaqələndirilməsi bacarığının inkişafını göstərir, həm də monitorinq aparmaq imkanını verir ki, şagirdlər tapşırığın məhsulunun forması üzrə birinci mərhələdə üzərində işlədikləri məlumatı nə dərəcədə düzgün başa düşmüş və praktiki olaraq onu nə dərəcədə yarada bilərlər. Buraxılan nöqsanlara uyğun əks əlaqə verməklə, tapşırığın son məhsulunu yaradarkən nöqsanların qarşısını almaq olar.

Nəzərə almaq lazımdır ki, kompleks tapşırığın və bu konkret fəallığın məhsullarını hazırladıqda, biz şagirdi nəinki fənn hədəf anlayışı üzrə, eləcə də narrativ (məlumatın quraşdırılması) kimi fənnüstü (makro) anlayış üzrə çalışdırırıq; əlavə məlumatla "Vətəndaşlıq üzrə məlumat kitabçası - 2022"-də, səh. 14-də tanış ola bilərsiniz.

**Fəallıq**: Əqli hücum

**Suallar**:

- İcmanızın hüquq mədəniyyətini üç səviyyəyə (yaxşı, orta, pis) uyğun olaraq necə qiymətləndirərdiniz?
- Nəyi yaxşılaşdırmaq istərdiniz?
- Bunun üçün siz və həmyaşıdlarınız nə edə bilərsiniz?

**Fəallıq**: müzakirə edin (aşağıda verilən vəziyyətlə tanış olun, suallara cavab verin), səh. 22

**Suallar**:

Aşağıda verilən vəziyyətlə tanış olun, suallara cavab verin:

- Vəziyyətin qəhrəmanının məhdud imkanlı şəxslər tərəfindən problemin müstəqil həlli haqqında fikri ilə nə dərəcədə razılaşırsınız?
- Dövlətə məhdud imkanlı şəxslərin hüquqlarının müdafiəsi məsələsində hansı rol həvalə edilir?
- Dövlətin hansı rolunun artırılmasını istərdin?
- Bir tələbənin başladığı hərəkat hansı nəticə verdi?
- Sizcə, nə üçün konkret problemin həlli üçün dövlətə vətəndaşların fəallığı/hərəkatı/etirazı lazımdır?
- Ölkəmizdə məhdud imkanlı şəxslərin gündəlik həyatı nə qədər tənzimlənir?
- Mövcud problemin qarşısının alınması üçün nə etməyi arzu edərdiniz?
- Məişət həyatınızda məhdud imkanlı şəxslərin cəmiyyətə daha yaxşı uyğunlaşdırılması üçün nə edə bilərsiniz?
- Düzgün olmayan qayğını (paternalizmi) necə başa düşürsünüz? Nümunələr gətirin.

**Əlavə məlumat**: P**aternalizm** dövlət və ya fərd tərəfindən insan azadlığı və muxtariyyətinə ona yaxşılıq etməsi motivi ilə müdaxilə etmək deməkdir, məsələn, təhlükədən qoruyur və tez-tez icbari xarakter daşıyır. Hazırda paternalizm xüsusilə aktualdır. O, məsələn, psixotrop, narkotik vasitələrin (məs., marixuananın) və ya müəyyən preparatların alqı-satqısının (yetişdirmə-istehsal və daşınma-istifadə) nəzarətində özünü göstərir. Eləcə də avtomobili idarə etdikdə, kəmərin taxılması və motosikl sürücüləri üçün dəbilqənin taxılması öhdəliyində; başqa cür desək, bunu başa dolayan qayğı kimi də adlandırırlar.

**Fəallıq**: müzakirə edin; səh. 25

**Fəallıq**: qruplarda işləyin, səh. 26

Aşağıda verilən 2 vəziyyəti bölüşdürün, tanış olun və verilən suallara əsasən hər birini müzakirə edin.

Resurs: dərslik, hüquqi dövlət və konstitusionalizm, səh. 36
Şagird kitabında verilən faydalı resurslar:

Gürcüstan Konstitusionalizminin inkişaf tarixi https://bit.ly/3 RxCPMw
Böyük Fransa inqilabı **https://bit.ly/3IzJG45**

**Fəallıq:** qrup işi (**bu fəallıq Şagird kitabında yoxdur**)

Adı çəkilən paraqrafın mətni üzərində iş üçün 4 qrup yaradırıq. Qruplar fərqli məsələlər üzrə işləyirlər:

1. Konstitusionalizmin başlanğıcında (Fransa İnqilabı – 1789-1899-cu illər)
2. Konstitusionalizm
3. Konstitusionalizm və Gürcüstan (tarix və qanunlar iyerarxiyası)
4. Gürcüstan Konstitusiyası (struktur və dəyişikliklər)

Prezentasiyalar vasitəsilə məlumatı bir-biri ilə paylaşırlar.

**Müəllimə tövsiyə**: "Hüquqi dövlət və konstitusionalizm", üzərində iş üçün 2 alternativi təklif edirik və bu da konstitusiya və konstitutisionalizmlə bağlı şagirdlərin ötən bilikləri ilə bağlıdır. Burada təqdim edilən fəallıq daha qısa vaxt ərzində ötən biliyin təkrarlanmasına və cəmləşməsinə xidmət edir. Əgər siz sinfin ehtiyaclarından irəli gələrək, paraqrafın üzərində daha xırdalıqlarla işləmək istəyirsiniz, bu halda kitabda verilən fəallıqları ardıcıllıqla izləyin.
**Fəallıq**: Yekunlaşdırma

Suallar:

- Şəxsən sizin özünüz Konstitusiya, beynəlxalq sənədlər, müxtəlif qanunlar haqqında məlumatı haradan əldə edirsiniz?
- Konstitusiyanı başqa qanunlardan fərqləndirən nədir? Nə üçün Konstitusiyanı tez-tez dəyişdirmək olmaz?
- Vətəndaşlıq fənni bu məsələlər üzrə bilik əldə etməkdə sizə yardım edirmi? Necə düşünürsünüz, gələcək vətəndaşlar üçün bu fənni öyrənmək aktualdırmı və ya yox? Nə üçün?
- Hüquqi məsələlər üzrə biliyinizi daha hansı forma ilə artırmaq istərdiniz?
- Əldə etdiyiniz bilik və nəticələri kompleks tapşırıq məhsulunda necə əks etdirərdiniz?

**Resurs**: dərslik, səh. 48

**Tapşırıq**

**Addım 3. Vətəndaş cəmiyyətinin, sıravi vətəndaşların hüquqi/qeyri hüquqi davranışı müxtəlif hökumət qollarına, dövlətdə demokratiya prinsiplərinin əməl edilməsinə (bunların hər biri ilə münasibətdə müxtəlif prinsip üzrə danışa bilərsiniz) və demokratiyanın səviyyəsinə nə kimi təsir göstərir? Nə üçün**? (**Əs.təs.4**)

**Resurs**: dərslik, hüquqi dövlət və vətəndaş cəmiyyəti, səh. 26
**Şagird kitabında verilən faydalı resurslar:**

Dünyanı dəyişən 10 etiraz https://bit.ly/3aIFz97
Rasizm və etnik əlamətə əsasən ayrı-seçkilik https://bit.ly/3o31afK

**Fəallıq:** müzakirə edin, səh. 30
**Suallar**:
Dünyada görkəmli hüquq müdafiəçisinin əhvalatı ilə tanış olun və aşağıdakı suallara cavab verin:
• Roza Parks nə ilə fərqlənirdi?
• ABŞ dövlətinin məşhur tətilindən əvvəl ona münasibət necə idi? Tətildən sonra?
• Sizcə, belə bir dəyişikliyin əsası nə idi?
• Təsvir edilən vəziyyətə əsasən, ABŞ-ı o dövrdə hüquqi dövlət adlandırmaq olardımı?
• Müxtəlif instansiyalar halında məhkəmə necə hərəkət etdi?
• Tətilçilərin qələbəsinə nə səbəb oldu?
• Bu hekayədən hansı qənaətə gəlmək olar?

**Fəallıq:** qruplarda işləyin, səh. 33
**Müəllimə tövsiyə**: buradaca doğru cavabların variantını təqdim edirik: birinci vəziyyətdə söhbət hərbi icbari xidmətdən gedir və bu isə vətəndaşın dövlət qarşısında öhdəliyini təqdim edir.

- Nika hərbi komissarlığa getməli və sonra da xidməti borcunu ödəmək üçün hərbi xidmətə getməli idi;
- Dövlət vətəndaşdan (Nikadan) qanunun yerinə yetirilməsini tələb edir;
- İkinci vəziyyətdə söhbət vətəndaşlar tərəfindən yaradılan və dövlət strukturu olmayan ictimai təşkilatın fəaliyyətindən gedir;
- Qiqa öz hüququndan - ətraf mühiti qorumaq hüququndan istifadə etdi;
- Vətəndaş (Qiqa) dövlətdən öz vəzifəsini yerinə yetirməyi tələb edir.

**Fəallıq**: qruplarda işləyin, səh. 34

**Müəllimə tövsiyə**: hər üç fəallıq üzərində işlədikdə, şagirdlərdən xahiş edin ki, fəallıqda təsvir edilən hüquqi/qeyri-hüquqi əməllər və demokratiya prinsipləri arasında uyğunluğu ayırsınlar və bunun dövlətdə demokratiya səviyyəsində öz əksini nə dərəcədə tapacağını təhlil etsinlər. (Məsələn, ölkədə rəngli dərisi olan əhaliyə qarşı ayrı-seçkilik qanunları qüvvədə idimi, seqreqasiyanın yeri var idimi, bərabərlik prinsipi pozulurdumu, bu qrupun hüquqları pozulurdumu? Belə bir vəziyyətdə dövlətin demokratiklik səviyyəsini yüksək qiymətləndirmək olarmı?)

Və ya əgər Nika qanunla hərbi xidmətlə bağlı üzərinə düşən öhdəliyə əhəmiyyət verməyibsə, demokratiyanın hansı prinsipi pozulur? Qanunun aliliyi prinsipinin müdafiəsi üçün dövlət strukturları müvafiq mexanizmləri fəaliyyətə gətirməlidir ya yox? Və s.

**Resurs**: Şagirdlərin hər hansı bir demokratiya prinsipinin (qanunun aliliyi, hakimiyyət bölgüsü, bərabərlik, ədalət, ədalətli seçkilər...) müdafiəsi və ya pozulması ilə bağlı dərslikdən yadda saxladıqları və ya həyati hallar.

**Fəallıq**: **ötən biliyin aktivləşdirilməsi; müzakirə;**

**Fəallıq:** qruplarda işləyin, səh. 42

4 qrup yaradın, "Hakimiyyət", "Vətəndaş cəmiyyəti", "Vətəndaşlar", "Media" adlarını bölüşdürün. Sizin adlara müvafiq olaraq, sizin seqmentinizin Gürcüstan konstitusiyasını, beynəlxalq sənədləri və onda əks olunan insan haqlarını tanıması, etiraf etməsi və nəzərə alması üçün nə etməli olduğu haqda prezentaiya hazırlayın. Nümunə gətirin.

Suallara cavab verin:

- Seqmentiniz hansı hüquqi sənədi/sənədləri rəhbər tutur və nə üçün?
- Adları çəkilən sənədləri öyrənmək, onun işinizdəki rolunu başa düşmək və həyata keçirmək üçün hansı mexanizmlərdən/metodlardan istifadə edirsiniz? Nümunələr gətirin.
- Bu istiqamətdə əməllərinizdən nə dərəcədə razısınız? Başqaları işinizi necə qiymətləndirirlər?
- Adı çəkilən sənədlərə uyğun olaraq hərəkət etdiyinizin/ etmədiyinizin indikatoru kimi nə faydalı olardı?
- Hərəkətləriniz demokratiyanın hansı prinsipinə uyğundur? Nə üçün belə düşünürsünüz?
- Bununla bağlı işinizdə nəyi dəyişərdiniz?
- Digər seqmentlərin nümayəndələrinə nə tövsiyə edərdiniz?

**Fəallıq:** Yekunlaşdırma
**Suallar**:

- Hüquq mədəniyyətinin olduğu/olmadığı halda, demokratiyanın prinsiplərindən hansının müdafiəsi/pozulması ilə işimiz var? Nə üçün belə düşünürsən?
- Demokratiyanın keyfiyyəti üçün bu prinsipin mahiyyəti necədir?
- İşdə və təqdimatda bu prinsip(lər)in mahiyyətini və onun müdafiəsi işində hüquq mədəniyyətinin rolunu necə göstərə bilərəm?

**Diqqət!**

Kompleks tapşırığın qiymətləndirilməsi üçün köməkçi alət, Əlavə 1, səh. 74-də izləyə bilərsiniz

**Kompleks tapşırığın yerinə yetirilmə və prezentasiya prosesində konkret şagirdlə fərdi işin aparılması üçün müəllim tərəfindən verilən suallar**:

- Tapşırıq üzərində iş prosesinin necə davam etdiyini/gedişini təsvir et;
- Verilən cədvəlin hansı məqsədə qulluq etdiyini izah et;
- Təqdim edilən suallar "şagirdlərinə" hansı məsələnin təhlilinə doğru istiqamət verir?
- Kompleks tapşırıq vasitəsilə hansı məsələ haqqında biliyini ifadə etdin?
- Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?
- Kompleks tapşırıq üzərində iş prosesində sizə nə köməklik edəcək?

- Tapşırığı yenidən yerinə yetirsəydin, nəyi dəyişərdin? Nə üçün?

**Aralıq məqsəd 2.**

**Aralıq məqsədin strukturu**

| Əsas məsələ | Məhsul | Müzakirə ediləsi hadisə/nümunə | Əsas sual | Dərslik/əlavə resurslar |
|---|---|---|---|---|
| Qanun və qanuna riayət etmək | Araşdırma hesabatı tövsiyələrlə (mətn/slaydşou); | Vətəndaş cəmiyyəti (qanunun müdafiəsinin zərurətini dərk edən və özü də onun qayğısına qalan cəmiyyət "eşitmə qabiliyyəti zəif olan şəxs", "ləyaqətli əmək platforması", qadınların hüquq mühafizəkarları... hə nümunələri)<br><br>(Bəzən cəmiyyət üzvləri bir sıra qanunların müdafiə ehtiyaclarını dərk etmir/edə bilmirlər və onların icrasına formal baxırlar (erkən nikah, ailədə zorakılıq, küçədə hərəkət qaydaları.....) yox nümunələri); | Vətəndaşların qanuna riayət etmələrinin yüksəldilməsi, stereotiplərin, inertivliyin, hərəkətsizliyin qarşısının alınması və hökumətə qanuna riayət etmə öhdəliyinin xatırlatma istiqamətində vətəndaş cəmiyyətinin rolu necədir? | Paraqraf 5. Qanun nədir və nə üçün mövcuddur, səh. 50<br><br>Paraqraf 6. Qanuna riayət etmək, səh. 63<br>Paraqraf 7. Ailədə zorakılıq, səh. 76 |

| **Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər**<br><br>Şagird dərk etməlidir ki: | **Qiymətləndirmə meyarları**<br><br>Şagird bacarır: | **Kompleks tapşırığa nisbətən konkretləşdirmə**<br><br>İşinizdə/işin təqdimatında xüsusilə göstərməlisiniz: |
|---|---|---|
| **Cəmiyyət**<br><br>1. İnsan, özünün dünyagörüşü (ideyaları, dəyərləri) və məqsədləri ilə bir şəxsiyyətdir;<br>2. İnsanın müxtəlif (*fizioloji, təhlükəsizlik, sosial əlaqələr və sairə*) tələbatları var, bunları ödəmədən şəxsən inkişaf edə bilməz;<br>3. Başqa insanlarla/sosial qruplarla/qurumlarla əlaqə insanın şəxsi inkişafına dəstək verir;<br>4. Assertivlik (insanın başqasını təhqir etmədən öz fikrini sərbəst şəkildə ifadə etmək qabiliyyəti) şəxsiyyətin və sosiumun harmonik əlaqəsinə dəstək verir. | **Cəmiyyət**<br><br>• Konkret halda, insanın dünyagörüşü (ideyaları və dəyərləri) və məqsədləri necədir<br>• Verilən halda insanın hansı ehtiyacları (Maslou nəzəriyyəsinə əsasən) ödənilir/ödənilmir<br>• İnsanlar arasında/insan və sosial qrup arasında/insan və qurum arasında konkret əlaqələr<br>• Verilən halda görünən əlaqələr nə qədər assertivdir | • Müzakirə olunan problemə hüquqi normanın qoyulmasının əsası nədən ibarətdir? Təhlil edin ki, bu qanun pozuntusu hansı mənfi nəticələrlə müşayiət olunur və onlar insanın ehtiyac və tələblərinə, hüquq mədəniyyətinə necə təsir edir? (**Əs.təs.1.2)**<br><br>• İctimai məlumatlandırmanın (məlumat çatışmazlığı, stereotiplər və ənənələr)  dəyişdirilməsində və qurumlara təsir göstərməkdə (qanunun aliliyinin monitorinqi, problemlərin advokatlaşdırılması) vətəndaş cəmiyyətinin rolu nədir? (**Əs.təs.3**)<br>• Vətəndaşlar, vətəndaş cəmiyyəti və hakimiyyət qanun pozuntularının qarşısının alınması və qanuna riayət edilmənin artırılması üçün niyə və necə əməkdaşlıq etməlidirlər? (**Əs.təs.4)** |

**Kompleks tapşırığın şərti**
Ətrafımızda bir çox qanun pozuntuları (piyada və sürücülər tərəfindən yol hərəkəti qaydalarının pozulması, erkən nikah halları, ailədə zorakılıq, məhdud imkanlı şəxslərin hüquqlarının, əmək hüquqlarının pozulması və s.) baş verir. Qanunu pozanlar bəzən vətəndaşlar, cəmiyyət, dövlət qurumları və ya hamısı birlikdə olur. Sən və sinif yoldaşların sadalananlardan sizin üçün ən aktual problemi qeyd etməlisiniz; icmada seçilmiş problemə uyğun qanunlar və qanunun icrasına mane olan səbəblər barədə ictimaiyyətin məlumatlılığı ilə bağlı sorğu keçirin;
**Birinci mərhələdə** fərdi şəkildə işləyin: müxtəlif yaşı, cinsi, təhsili, etnik mənsubiyyəti olan insanlarla müsahibə aparın (hər biri 5-6 respondent). Cavabları analiz edin və qanuna riayət etməyə qarşı ictimai münasibəti dəyişdirmək və qurumlara təsir göstərmək məqsədilə vətəndaş cəmiyyətinin nə edə biləcəyi ilə bağlı tövsiyələr hazırlayın. **İkinci mərhələdə** qruplar yaradın, araşdırmalarınızın nəticələrini bir-birinizlə paylaşın və onları müqayisə edin. Qrup tövsiyələr formasında (mətn/slayd şousu) tədqiqat hesabatını hazırlamalı və təqdim etməlidir.

**İşində/işin təqdimatında xüsusilə göstərməlisən:**
• Müzakirə olunan problemə hüquqi normanın qoyulmasının əsası nədən ibarətdir? Bu qanun pozuntusunun hansı mənfi nəticələrlə müşayiət olunduğunu təyin edin və onlar insanın ehtiyac və tələblərinə, hüquq mədəniyyətinə necə təsir edir?
• İctimai məlumatlandırmanın (məlumat çatışmazlığı, stereotiplər və ənənələr) dəyişdirilməsində və qurumlara təsir göstərməkdə (qanunun aliliyinin monitorinqi, problemlərin advokatlaşdırılması) vətəndaş cəmiyyətinin rolu nədir?
• Nə üçün və necə vətəndaşlar, vətəndaş cəmiyyəti və hökumət qanun pozuntularının qarşısını almaq və qanuna riayət edilməni artırmaq üçün əməkdaşlıq etməlidir?

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri** (fəallıqlar, resurslar, suallar)

**I mərhələ - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurslar/müzakirə olunmalı vəziyyətlər**

- **Resurs 1.** Dərslik, Qanun və qanuna riayət etmə, kompleks tapşırığın şərti, səh. 49

**Kompleks tapşırığın şərtinin anlayışına yönəlmiş suallar:**

- Araşdırma nə deməkdir? Nəyi nəzərdə tutur: sorğunu, müşahidəni, analizi?
- Araşdırma keçirmək təcrübəniz varmı? Nədə çətinlik çəkdiniz? Nə asan oldu?
- Araşdırma predmetiniz nə olacaq? Məqsəd?
- Ötən təcrübənizi nəzərə alaraq, araşdırmanın hansı mərhələlərini ayırarsınız?
- Hazırlıq mərhələsində nə etmək istəyirsiniz? Araşdırma anketini necə tərtib edərsiniz?
- Araşdırma hesabatı nədir? Onda nə yazılır?
- Hesabat planını tərtib etdikdə, kompleks tapşırığın şərti və meyarlarını necə nəzərə alacaqsınız?
- Hesabatı necə yazmalıyıq? Onun strukturunu necə təsəvvür edirsiniz?
- Araşdırma hesabatına vizuallaşdırma üçün nəyi əlavə etmək olar?

**Kompleks tapşırıq**

- Bu gün verilən və üzərində bir neçə dərs ərzində işləyəcəyiniz tapşırığın nəyə aid olduğunu öz sözlərinizlə təsvir edin.
- Əvvəllər oxşar forma və ya məzmundan ibarət tapşırıq yerinə yetirmisinizmi?

**II mərhələ - kompleks tapşırıq üzərində iş**

**Hədəf anlayışı –** cəmiyyət**; yarımməsələ:** vətəndaş cəmiyyəti

**Addım 1. Müzakirə olunan problemə hüquqi normanın qoyulmasının əsası nədən ibarətdir? Bu qanun pozuntusunun hansı mənfi nəticələrlə müşayiət olunduğunu təyin edin və onlar insanın ehtiyac və tələblərinə, hüquq mədəniyyətinə necə təsir edir? (Əs.təs. 1,2)**

**Resurs**: dərslik, qanun nədir və nə üçün mövcuddur? Səh.46
**Şagird kitabında verilən faydalı resurslar:**

İnsan hüquqlarının müdafiə mexanizmləri https://3o0dwVJ
İnsan hüquqlarının qısa tarixi https://bit.ly/3IzUBe5
İnsan azadlıqları https://bit.ly/3z77CIZ
Etiqad azadlığı https://bit.ly/3RL0kC3

**Fəallıq:** Müzakirə edin, səh. 50
**Suallar**:
Aşağıda verilən əhvalatı müzakirə edin və suallara cavab verin:
• Hüquqlarını bilməmək vəziyyətin qəhrəmanına nə kimi ziyan vurdu? Qanunun islahatlaşdırılması prosesinin uzadılması?
• Sizcə, ailələr nə üçün məhdud imkanlı şəxsləri gizlədirdilər? Bu gün bununla bağlı vəziyyət necə dəyişib?
• Vətəndaş cəmiyyəti bu prosesə nə kimi töhfə verir? Nümunələri adlandırın;
• Bu vəziyyətə görə sosial yardım sistemində hansı nöqsanlar var?
• Sosial yardım agentliyi gənc qadına qarşı günahkar idimi? Nə üçün?
• Vəziyyətin qəhrəmanı hüquqlarını qorumaq üçün məhkəməyə müraciət etməsəydi, hadisələr necə cərəyan edərdi?
• Hakimin qərarı sizin üçün nə dərəcədə məqbuldur? Vətəndaşın iddiasının təmin edilməsi ilə bağlı qərar nəyə əsaslanıb?
• Nə üçün hakim mövcud qanunla özünə haqq qazandırdığı sosial yardım agentliyinin nümayəndəsinin sözlərini nəzərə almadı?
• Sizcə, oxşar hərəkət digər məhdud imkanlı şəxslər üçün motivasiyadırmı?
• Oxşar vəziyyətdə olan məhdud imkanlı şəxslərə nə məsləhət görərdiniz?
• Bu hekayənin qəhrəmanını hüquqi mədəniyyətə malik vətəndaş adlandıra bilərikmi? Cavabınızı əsaslandırın.

**Fəallıq**: müzakirə edin, səh. 52

**Suallar**:
• Sizcə, qanun yaradıcılığı prosesində insan hüquqları nəzərə alınırmı, hər hansı qanunlar insanların mənafeyini qorumaq üçün müzakirələr əsasında aparılırmı?
• Vətəndaşların və cəmiyyətin qanun yaradıcılığı prosesinə cəlb edilməsi necədir? Nə üçün?
• Qanundan kənarda qalan, sonradan fikir ayrılığı və ya qeyri-müəyyənlik yaradan hər hansı aspekt ola bilərmi?
• Belə bir zamanda nə baş verir, bu səhvi düzəltmək üçün kim və necə məşğul ola bilər?
• Yeni hüquqi sənədlər, onların əsasları, mahiyyəti və icra mexanizmləri haqqında ictimaiyyəti necə məlumatlandırmaq olar?
• Sizcə, niyə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi xüsusi narahatlıq doğurur?

• Konkret hüquq normaları işlənib hazırlanarkən hansı təməli sənədlər nəzərə alınır?
•Tənzimləmə sahəsinə görə qanunlar hüquq sahələri adlanan qruplara bölünür.

**Müəllimə tövsiyə**: bu paraqraf, vəziyyətlər, fəallıqlar və növbəti vəziyyətlər də öncəki biliyin aktivləşməsinə və şagirdlərin qanunun mahiyyəti, onun əsasları və əhəmiyyəti, bu proseslərdə vətəndaş cəmiyyətinin qoşulmasının dərk edilməsi, insan hüquqlarının pozulması səbəbinin bir çox hallarada cəmiyyət üzvlərinin bir sıra qanunların zərurətini anlamadıqları və formal olaraq bunların yerinə yetirilməsinə baxdıqları mühitin səbəb olduğunu dərk etmələri kimi düşüncə proseslərinin aparılmasına xidmət edir.

**Fəallıq**: qruplarda işləyin, səh. 54

4 qrup yaradın, 2 qrup 1-ci vəziyyət, 2-ci qrup 2-ci vəziyyət üzərində işləyir.
Vəziyyət 1
"Mədənçi arvadının mahnısı" şeiri ilə tanış olun, orada təqdim olunan problemləri müzakirə edin və aşağıdakı suallardan istifadə edərək təqdimat hazırlayın:
• Şeir hansı sosial problemdən bəhs edir? Nə üçün belə düşünürsünüz?
• Vətəndaş poeziyası, incəsənəti haqqında nə bilirsiniz? Bunu vətəndaş fəallığının bir forması hesab etmək olarmı?
• Mədənçinin arvadının qeyd etdiyi dəyişiklikləri təsvir edin. Bu dəyişikliklər nəyi göstərir?
• Arvad mədənçinin hansı qayğıları ilə bölüşür və nəyi söyləmir? Nə üçün?
• Bu tələbatları sizə məlum olan "Maslou piramidası" səviyyələri ilə əlaqələndirin;
• Mədənçi peşəsi ilə bağlı riskləri və faydaları sadalayın; onların bir-birinə necə uyğun gəldiyini müqayisə edin və müzakirə edin.
• Mədənçilərin əmək şərtləri hansı insan hüquqlarını pozur?
• Belə bir vəziyyəti ədalət baxımından necə qiymətləndirə bilərik? Arqumentləri sadalayın;
• Şeirin axırıncı cümləsi nəyə işarə edir: "Qoy ərimin əl-ayağı salamat olsun ki, mədənə düşə bilsin"?
• Sizcə, ədaləti bərpa etmək üçün vəziyyət necə dəyişməlidir?
• Əmək hüquqlarının pozulması ilə bağlı digər halları xatırlayırsınızmı? Bu vəziyyətdən kim və necə zərər çəkir?
• Belə vəziyyətlərdə nəyi dəyişmək olar: vətəndaş cəmiyyətini (qeyri-hökumət təşkilatlarını, medianı, həmkarlar ittifaqlarını, incəsənəti...), vətəndaşları?

**Müəllimə tövsiyələr**: şagirdlərə izah edək ki, ana dilində düzgün forması "mədən" və "mədənçidir", "şaxta" və "şaxtaçı" barbarizmlərdir, rus dilindən gəlir. Şeirin müəllifi bu sözlərdən real məişətin (nitqin) ötürülmə üsulu kimi istifadə edir.

**Fəallıq**: müzakirə edin, səh. 60
Aşağıdakı mətnlə tanış olun və növbəti suallara cavab verin:
• Munisipalitetinizdə tullantıların idarə olunması vəziyyəti haqqında nə bilirsiniz? Nə dəyişib? Nə əvvəlki kimi qalıb?
• Tullantıların idarə olunmasında yerli töhfə vermək üçün şəxsən siz nə edə bilərsiniz?
• Sizcə, vətəndaş cəmiyyəti bu halda necə davranır? Bu, beynəlxalq müqavilə öhdəliklərinin yerinə yetirilməsinə təsir göstərə bilərmi?
• Sizcə, vətəndaş sektoru hökumət və cəmiyyət tərəfindən qanunvericiliyin və beynəlxalq razılaşmaların müdafiəsi işində başqa hansı yollarla cəlb oluna bilər?

Fəallıq: debatlar, “qanunlar və ya ədalət hissi?”, səh. 72

**Müəllimə tövsiyələr:** Debatlara başlamazdan əvvəl, şagirdlərin "Qanuni və ya ədalətli" videoçarxı ilə tanış olmaları yaxşı olardı: **https://bit.ly/3yzztjo,** bunun elektron ünvanı və adı şagird kitabında da verilir.

Resurs: dərslik, qanuna riayət etmək, səh. 63
Şagird kitabında verilən faydalı resurslar:

Aktiv vətəndaş və vətəndaş cəmiyyəti https://bit.ly/3PtqI1I
Yol hərəkatı mədəniyyəti https://bit.ly/3IXPnJm
Erkən nikah https://bit.ly/3yHU0Ck
Animasiya “Erkən nikah” /Animation “Early Marriage” https://bit.ly/3AOITdu
Erkən nikah https://bit.ly/3v8OKqr https://bit.ly/2MS3F5G

**Fəallıq:** müzakirə edin (vəziyyətin müzakirəsi) səh. 63
• Təklif olunan hekayə nə haqdadır? Problemi aşkarlayın.
• Siz bunu hüquq mədəniyyəti ilə necə əlaqələndirirsiniz?
• Siz belə bir vəziyyətin iştirakçısı və ya şahidi olmusunuzmu? Oxşar davranışı necə izah edərsiniz?
• Necə düşünürsünüz, qanun (bu halda yol hərəkəti qaydaları) belə halları tənzimləyirmi?
• Yalnız qanunun mövcudluğu nəticə verə bilərmi? Daha nə lazımdır?
• Oxşar vəziyyətlərə kim nəzarət etməlidir və bu nöqteyi-nəzərlə bağlı vəziyyət necədir?
• Tətbiq olunan sanksiyalar uyğundurmu?
• Bu halda hüquq mədəniyyətinin qıtlığını kim büruzə verir? Bu nədən ibarətdir?
• Vətəndaş cəmiyyəti, vətəndaş məsuliyyəti olmadan hüquqi mədəniyyətin bərqərar olması mümkündürmü? Nə üçün?
• Qanuna riayət edən vətəndaş, cəmiyyət hüquqi mədəniyyət üçün zəruri ön şərtdirmi?
• Bu yanaşmanın dəyişməsi üçün nə lazımdır?

**Fəallıq**: müzakirə edin, səh. 65
**Suallar:**
Aşağıdakı “Bir qız necə qurban olmadı” hekayəsi ilə tanış olun və müzakirə edin:
• Hər ikisinin eyni vəziyyətə düşdüyü halda, Nana ilə bacısının hərəkətləri arasında hansı fərq var idi?
• Bacısının taleyini bölüşməməsi üçün Nanaya nə kömək etdi?
• O, hüquqları haqqında məlumatı necə əldə etdi?
• Qıza hüquq bilikləri ilə yanaşı, hansı şəxsi keyfiyyətlər məcburi nikahdan qaçmağa kömək etdi?
• Nə üçün Nananın bacısı zorakılıqdan xilas ola bilmədi?

• Nə üçün yalnız hüquqları bilmək kifayət etmir?
• Sizcə, o, ilk növbədə nəyi dərk etməli oldu?
• Nana kimin dəstəyinə ümid edə bilərdi?
• Bu halda qurban kimlə əlaqə saxlaya bilər?
• Belə bir vəziyyətdə emosiyaların idarə edilməsinin nə kimi rolu var? Assertivliyin?
• Necə düşünürsünüz, valideynlərin davranışının səbəbi nədir? Bu problemin qarşısını necə almaq olar?
• Oxşar problemlə bağlı icmanızda əhval-ruhiyyə necədir?
• Erkən nikahın gender bərabərliyinə təsiri necədir? Nə üçün?

**Fəallıq**: qruplarda işləyin, səh. 66
**Suallar**:

• Sizcə, ölkədə müvafiq qanunvericiliyin qüvvədə olduğu halda, nə üçün Daxili İşlər Nazirliyi əhaliyə oxşar ismarıcı göndərməyi qərara alıb? Aşağıda verilən hüquqi sənədlərlə tanış olun:
• Növbəti faktı da nəzərə alın ki, Gürcüstanda 18 yaşına çatmamış şəxslərin nikahı qanunla qadağandır.
• Bununla yanaşı, on altı yaşına çatmamış şəxslə cinsi əlaqədə olan yetkinlik yaşındakı şəxs 7-dən 9 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır;
• bu qanunvericilik sənədlərinə əsaslanaraq analiz edin ki, erkən nikah insan hüquqlarının pozulmasının əsasını necə təşkil edə bilər və qızların şəxsi inkişafı üçün maneçilik yaradan amil ola bilər;
• Bəzi hallarda qanunun pozulduğu halda, kim günahkardır?
• Yetkinlik yaşına çatmayanlar haqqında qanunun effektiv tətbiqi üçün nə və kim tərəfindən edilməlidir?
• Erkən nikahla bağlı cəmiyyətimizin bir hissəsinin hüquqi mədəniyyəti necədir?
• Qanun erkən nikahı qadağan etməklə yetkinlik yaşına çatmayanları hansı risklərdən uzaqlaşdırmağa çalışır?
• Erkən nikahın qızlar üçün hansı xoşagəlməz nəticələri var?
• Qanun valideyn məsuliyyətini necə tənzimləyir?
• Valideynlər tərəfindən qanuni öhdəliklərin pozulma səbəbi nə ola bilər?
• Valideynlərin bu cür hərəkətlərini istisna etmək üçün nə lazımdır?
• Bu növ qanun pozuntularının qarşısını almaq üçün vətəndaş cəmiyyəti nə edə bilər?

**Müəllimə tövsiyə**: Qruplara işləmək üçün müxtəlif məsələlər versəniz yaxşı olardı.

- Azyaşlının sağlamlığına erkən nikahın zərərli təsiri;
- Erkən nikah insanın şəxsi inkişafına mane olan amil kimi;
- Erkən nikah – insan hüquqlarının pozulması;
- Nə üçün cəmiyyətimiz erkən nikah faktlarına qarşı dözümlüdür?

Prezentasiyalar zamanı isə sinfə hər bir məsələ üzrə müzakirə aparmaq imkanını verək. Əgər onlar bu fəallıqla araşdırma mövzusu olaraq erkən nikahı seçsələr, bu halda şagirdlər fərdi yerinə yetirəcəkləri kompleks tapşırığın birinci mərhələsi üçün hazırlaşırlar. Onlara ən son məsələni xatırladaq – Araşdırma anketinin tərtib edilməsini.
Fəallığı yekunlaşdırdıqda, birinci üç qrupun erkən nikahın şəxsiyyətə və cəmiyyətə mənfi nəticələri təqdim edilən prezentasiya vərəqlərini yerləşdirək. Xüsusilə qeyd edək ki, azyaşlıların nikahının qanuni qadağan edilməsi məhz bu mənfi nəticələrin və dövlətdən uşağa qayğı öhdəliyinin nəzərə alınması ilə baş verib. Qanunu pozanlar isə mənfi nəticələri bərqərar edir və dövlətə öz öhdəliyini yerinə yetirməkdə mane olurlar. Dördüncü qrupun işini ayrıca yerləşdirək və bununla bağlı qeyd edək ki, cəmiyyətin cinayət haqqında susması, cinayətin örtülməsi-susdurulması qanunun pozulmasının və məhz cəmiyyətin bu hərəkətə təkan verdiyi səbəbləri araşdırmaq lazımdır.

**Diqqət**! Bu fəsildə verilən və hər hansı bir qanun pozuntusuna aid olan hər bir vəziyyətin üzərində analoji vurğularla çalışdırmalıyıq və bu da şagirdlərin müəyyən hissəsi üçün araşdırma məsələsi ola bilər.

**Fəallıq**: Cütlüklərdə işləyin, səh. 69
Suallar:
Qruplara bölünün, aşağıda erkən nikah haqqında verilən məlumatlarla tanış olun, müzakirə edin:
• Erkən nikah yetkinlik yaşına çatmayana necə təsir edir, onun üçün hansı risklər yaradır?
• Bununla bağlı icmanızda maarifləndirmə ehtiyacı hansı ölçüdədir?
• İnformasiyalara əsasən hansı pozuntular ortaya çıxır?
• Gələcək araşdırmanız hansı məlumatın dəqiqləşdirilməsi məqsədini daşıyır?

**Anket hazırlayın** və bu da sizə araşdırmanızda yardım edəcəkdir; anketi siniflə paylaşın və onun məzmununu razılaşdırın.
**Müəllimə tövsiyə**: Təqdim edilən anketləri razılaşdırdıqda, düzgün praktikadan istifadə edin ki, suallar təxminən bu məzmunu əhatə etsinlər: icmanızda azyaşlıların nikah halları varmı? Sorğu aparılanların erkən nikaha münasibətləri necədir? Qanun haqqında nəyi bilir? Erkən nikahın mənfi nəticələri haqqında nə bilirsən? Nəyi bilmək istəyir? Qanunun tam qüvvəyə düşməsinə mane olan nədir? Bunun üçün kim və nə etməlidir? Vətəndaşlar və dövlət necə əməkdaşlıq etməlidirlər?
Diferensial təlim prinsipini nəzərə alaraq iki növdə anket hazırlamaq olar: biri kəmiyyət araşdırması üçün – nisbətən sadə və digəri – keyfiyyət araşdırması üçün, yəni dərinləşdirilmiş müsahibə üçün (müsahibəçilər kimi bir neçə ekspert seçilə bilər: məktəb direktoru, psixoloq, sahə müvəkkili, icmada fəaliyyət göstərən qeyr-hökumət təşkilatının nümayəndəsi, həkim və s. Kəmiyyət araşdırmasını 5-6 respondentlə aparırlar, keyfiyyət araşdırmasını isə 1-2 ekspertlə).
Anket(lər)in razılaşdırdıqdan sonra şagirdlər onu təyin edirlər. Fərdi tapşırığın təqdimatı üçün vaxt təyin edin.

**Addım 2. İctimai maarifləndirmənin (məlumat çatışmazlığı, stereotiplər və ənənələr) dəyişdirilməsində və qurumlara təsir göstərməkdə (qanunun aliliyinin monitorinqi, problemlərin advokatlaşdırılması) vətəndaş cəmiyyətinin rolu nədir? (Əs.təs.3)**

**Resurs: dərslik, qanuna tabe olmaq, səh. 57**
**Şagird kitabında verilən faydalı resurslar:**

**Fəallıq: C**ütlüklərdə işləyin, səh. 71

**Fəallıq**: Yadınıza salın, səh. 72
**Suallar**:
• Gürcüstanda vətəndaşlar məşğulluğun hansı formalarından/vasitlərindən istifadə edirlər?
• Hansı məşğulluq formasını ən məqbul və effektiv hesab edirsiniz? Nə üçün?
• Şagirdlər, valideynlər, müəllimlər məktəbin idarə edilməsində iştirak edə bilərlərmi? Necə?
• Referendumla plebisit arasında hansı fərq var?
• Nə üçün referendum və plebisit siyasətdə iştirak forması hesab olunur?
• Gürcüstanda referendum və plebisitin nə vaxt və hansı məsələlər üzrə keçirildiyini sadalayın.

**Müəllimə tövsiyə**: Şagirdlər fərdi araşdırma nəticələrini qrupda bütövləşdirmək üçün hazırlaşana qədər öncəki iki fəallıq yerinə yetirilir ki, şagirdlər bir də hüquq mədəniyyətinə malik olmağın nəyi bildirdiyini, qanun qarşısında məsuliyyət hiss etməyi başa düşsünlər. Ancaq qanunda nöqsan olduğunu, ədalətsiz, sərt olduğunu hesab edirlərsə, bu halda qanunların dəyişdirilməsində və yeni qanunun işlənib hazırlanmasında vətəndaşlar da iştirak edə bilərlər. Amma qanunlar da müəyyən qaydalara əməl etməklə, yəni qanuni yolla dəyişdirilməlidir. Qüvvədə olan qanuna isə, hətta onu əhəmiyyətsiz və ya səhv hesab etdiyimizdə də riayət etməliyik.

**Fəallıq**: Modelləşdirmə,  səh. 74-75

**Resurs**: Dərslik, ailədə zorakılıq, səh. 62

**Şagird kitabında verilən faydalı resurslar:**
Ailədə kişilərin iştirakı https://bit.ly/3IBiulg
Ziyanlı gender stereotiplərinə üstün gəlmək – podkast №1 https://bit.ly/3PboeF4
Animasiya “Ailədə zorakılıq”/Animation **“**Family Violence**”** https://bit.ly/3cuAm5o
Ailədə zorakılıq uşaqlara və yeniyetmələrə çox pis təsir göstərir https://bit.ly/3zhgc6T
Ailədə zorakılıq, qaynar xətt https://bit.ly/3v5thyI

**Fəallıq:** Qruplarda işləyin, səh. 76
**Suallar**
2 və ya 4 qrupa bölünün və vəziyyətləri bölüşün. Ailə zorakılığının qurbanı olan qadınlarla anonim müsahibələri oxuyun, müzakirə edin və növbəti sualları nəzərə alaraq təqdimatlar hazırlayın:
• Ailə zorakılığı haqqında nə eşitmisiniz?
• Təsvir edilən vəziyyətdə qurban kimdir və zorakı kimdir? Hansı zorakılıq növü ilə qarşılaşırıq?
• Ailə zorakılığı iştirakçı tərəflərə nə kimi təsir edir? Bu ailədə yaşayan uşaqlara?

• Cəmiyyət, ictimaiyyət belə faktlara necə reaksiya verir?
• Ailə zorakılığına məruz qalmış şəxslərin cavablarından stereotip məzmunlu fikirləri ayırın və onları nə üçün stereotip hesab etdiyinizi izah edin?
• Təsvir edilən vəziyyətlərlə erkən nikah arasında hansı əlaqəni görürsünüz?
• Zorakılığa məruz qalmış şəxsin ailə zorakılığında sadaladığı səbəblər hansılardır? Nə əlavə edərdiniz?
• Ailə zorakılığı hansı mənfi nəticələrə səbəb olur?
• Bu və oxşar vəziyyətlərdə olan insanlara hansı qərarı qəbul etməyi tövsiyə edərdiniz? Nə üçün?
• Ailədə zorakılığın qarşısını almaq üçün hansı hüquqi yollar var?
• Burada verilən vəziyyətlərdə qurban qadınlardır, halbuki əslində bu rolda kişilər də olublar (çox nadir halda). Oxşar hallar haqqında nə eşitmisiniz?
• Zorakılığa məruz qalmış qadın və kişilərə cəmiyyətin münasibəti eynidirmi? Zorakı qadınlara və zorakı kişilərə qarşı?
• Qonşunuzun evindən zorakılıq səslərini eşitsəniz nə edərdiniz: mübahisəyə/davaya müdaxilə edərdiniz, 112-yə zəng edərdiniz, digər qonşulara xəbər verərdiniz və ya heç nə olmamış kimi davranardınız?
• Sizcə, son illərdə ailə zorakılığı nəticəsində dünyasını dəyişən qadınların sayının azalması və ya ümumiyyətlə, olmaması üçün zorakılığın şahidi olan qonşular və qohumlar necə hərəkət edə bilərdilər?
• Sizcə, nə üçün ailədə zorakılıq məsələlərini məktəbdə öyrənirik?

**Müəllimə tövsiyə:** Yekunlaşdırdıqda qeyd etməliyik ki, ailədə zorakılıq və erkən nikah arasında sıx əlaqə var. Hər ikisi qanun pozuntusudur və bir çox hallarda, müsahibələrdən də göründüyü kimi, biri ikinciyə səbəb olur. Ailədə zorakı mühitdən xilas olmaq üçün azyaşlı erkən nikaha o ümidlə üz tutur ki, daha yaxşı mühitə düşəcək, həqiqətdə isə yeni problemlərlə qarşılaşır. Bəzən erkən nikah ailədə zorakılığın birbaşa nəticəsi olur, çünki valideynlər azyaşlını "ərə verməyə" məcbur edirlər. Hər bir halda, işimiz qeyri-qanuni əməllə olur. Əsas odur ki, ətrafdakılar (yaxınlar, icma, cəmiyyət, məktəb, yerli strukturlar) buna göz yumurlar və müdaxilə etmirlər, çünki "ailə işinə heç kim qarışmamalıdır", "bu, bizim işimiz deyil" kimi kök salmış stereotiplər hələ də möhkəm işləyir və maarifləndirmənin inkişafı zərurətini göstərir.

**Addım 3. Nə üçün və necə vətəndaşlar, vətəndaş cəmiyyəti və hökumət qanun pozuntularının qarşısını almaq və qanuna riayət edilməni artırmaq üçün əməkdaşlıq etməlidir? (Əs.təs.4)**
Resurs: dərslik, ailədə zorakılıq,səh. 81

Fəalllıq: qruplarda işləyin (**mətn üzərində iş) (bu fəallıq Şagird kitabında yoxdur)**

**Suallar:**
Səh. 81-84-də verilən məlumatla tanış olun, müzakirə edin və suallara cavab verin:
- Ailədə zorakılığın aşkarlanması, qarşısının alınması və müdafiəsi üçün hansı hüquqi mexanizmlər mövcuddur?
- Ailədə zorakılıq qurbanlarının müdafiəsinin müvəqqəti tədbirləri nəyi nəzərdə tutur?
- Sizcə, ailə zorakılığının qarşısının alınması üçün nə etmək olar?
- Dövlət bu işə hansı töhfə verə bilər? Cəmiyyət? Vətəndaş?
- İcmanızın məlumatlandırılması araşdırmanızda öz əksini necə tapdı? Onlar erkən nikahın aşkar edilməsi, qarşısının alınmasının hüquqi mexanizmləri haqqında nə bilirlər?

- Araşdırma nəyi göstərdi: erkən nikah haqqında mövcud qanunvericilik normasının effektiv fəaliyyəti üçün nə etmək olar?
- Bu işdə vətəndaş cəmiyyəti nə kimi rol oynaya bilər?
- Erkən nikahın qarşısının alınması ilə münasibətdə araşdırmanızın tövsiyələri necədir?

**Fəallıq**:  qrup işi (**bu fəallıq Şagird kitabında yoxdur**)

**Qruplara təlimat:** qruplara bölünün, qaydalar hazırlayın, bir-birinizin araşdırma nəticələrinizi və tövsiyələri dinləyin, işləri bütövləşdirin və təqdimat üçün hazırlaşın.

**Müəllimə tövsiyə**: bu, üzvlərinin işlərini bütövləşdirən və kompleks tapşırığın yekun məhsulunu birlikdə təqdim edən qruplar olacaq. Bunları "Araşdırmalar qrupu №1", № 2, № 3 və s. adlandırmaq olar (şagirdlərin sayına əsasən, hər qrupda 5-6 şagirddən çox olmamalıdır). Kompleks tapşırıq başa çatana qədər bu qruplar birlikdə işləyirlər. Siz şagirdləri təsadüfilik və ya öz mülahizələrinizə,qüvvə tarazılığına əsasən seçəcəyinizə qərar verməlisiniz. Anket üçün diferensial metod seçdiyiniz halda, keyfiyyət araşdırmaçılarının bölgüsünün də qayğısına qalın. **Vacib şərti unutmayın**: ilk öncə, qrup əməkdaşlıq qaydaları və gündəlik üzrə, daha dəqiq desək, dərsin və ya dərslərin qaydası üzrə razılığa gəlməlidir, çünki bu proses növbəti dərslərdə də davam edəcəkdir. Gündəlikdə lazımi şərt kimi, qrup üçün fərdi nəticələrin təqdimatı və qrupdan əks əlaqə alınmalıdır, eləcə də nəticələrin və tövsiyələrin bütövləşdirilməsi və təqdimat üçün hazırlanması. Yaxşı olardı ki, fərdi işlərin təqdimatı-bütövlüyü prosesinə ayrılan dərs/dərslər məktəbdə daha böyük məkanda (akt zalında, kompüter mərkəzində ....) aparılsın ki, qruplar iş üçün guşələrini ayırsınlar. Belə bir imkan yoxdursa, şagirdlərdən sinfin müxtəlif güşələrinə çəkilmələrini və astadan danışmalarını xahiş edirik.
Siz bu halda fasilitator rolunda qalırsınız, fərdi təqdimatlara və qarşılıqlı qiymətləndirmə prosesinə nəzər yetirirsiniz ki, xoş əhval-ruhiyyə çərçivəsindən kənara çıxmasın.
Təhlil edilən qanun pozuntusunun seçimi üzrə fikir ayrılığı olduğu halda, başdan fərqli strategiya seçmək və qrupları təhlil ediləsi məsələlərə əsasən yaratmaq olar, məsələn, erkən nikah üzrə, əmək hüquqlarının mühafizəsi üzrə və s.

**Fəallıq**:  qrup işi (**bu fəallıq şagird kitabında yoxdur**)

Kompleks tapşırığın yekun məhsulu üzrə işi başa çatdırın: təqdimat üçün araşdırmanın bütövləşdirilmiş nəticələri və tövsiyələrini hazırlayın;

**Müəllimə tövsiyə**: araşdırma qruplarının işi başlayan kimi və təqdimat hazırlayan zaman da şagirdlərdən kompleks tapşırıqla (birinci mərhələdə) tanışlıq dərsində ayrılan araşdırma hesabatı strukturunu yada salmağı xahiş edin ki, aldıqları bilik və təcrübə əsasında araşdırma hesabatının strukturunu və planını daha da kamilləşdirsinlər və işə uyğun şəkil versinlər. Tapşırığın qiymətləndirmə meyarlarını də xatırlatmalıyıq. Qruplarda işin hər bir mərhələsində şagirdlərə xatırlatmaq lazımdır ki, iştirak bərabər və hər kəs üçün mümkün olsun.
Həmçinin, təqdimat zamanı onlara daha yaxşı tanış olan diaqnostika suallarını nəzərə almaları üçün məsləhət verin.
Kompleks tapşırığın yerinə yetirilmə prosesi iki mərhələni əhatə edir, fərdi və qrup. Bu isə **əməkdaşlıq** kimi **funksional bacarığın** inkişafına dəstək vermək imkanını verir. Fəallığı yekunlaşdırdıqda, bu proses üzrə şagirdlərin özlərini də suallarla düşündürməliyik: fəallıq prosesində onların nə kimi hissləri var idi? Onların hissləri, nəticə üzrə hesabat nöqteyi-nəzərindən, hansı səviyyədə üstünlük təşkil edirdi – fərdi və ya qrup işində və ya bərabər? Sizcə, hansı daha doğrudur və nə üçün?

**Diqqət**!

**Kompleks tapşırığın qiymətləndirilməsinə köməkçi alət, Əlavə 2 izləyin, səh. 76**

**Kompleks tapşırığın yerinə yetirilməsi və təqdimatı prosesində müəllim tərəfindən konkret şagirdlə fərdi işin aparılması üçün verilən suallar**

- Tapşırıq üzərində iş prosesinin necə davam etdiyini/gedişini təsvir et;
- Verilən araşdırmanın hesabatının hansı məqsədə qulluq etdiyini izah et;
- Təqdim edilən nəticələr və tövsiyələr həmyaşıdlarına hansı məsələnin təhlilinə doğru istiqamət verir?
- Kompleks tapşırıq vasitəsilə hansı məsələ haqqında biliyini ifadə etdin?
- Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?
- Kompleks tapşırıq üzərində iş prosesində sizə nə köməklik edəcək?
- Tapşırığı yenidən yerinə yetirsəydin, nəyi dəyişərdin? Nə üçün?

## Aralıq məqsəd 3.

## Aralıq məqsədinin strukturu

| Əsas məsələ | Məhsul | Müzakirə ediləsi hadisə/nümunə | Əsas sual | Dərslik/əlavə resurslar |
|---|---|---|---|---|
| İnsan hüquqlarının müdafiə mexanizmləri | Məqalə/post | Hüquq mədəniyyətinin iştirakçıları | Hüquq mədəniyyətinin iştirakçıları kimlərdir və aktiv vətəndaşlar, qruplar hüquq mədəniyyətinin bərqərar edilməsi/yaxşılaşdırılması işinə necə cəlb oluna bilərlər? | Paraqraf 8. Məhkəmə hakimiyyəti, səh. 88<br><br>Paraqraf 9. İmitasiyalı məhkəmə prosesi andlıların iştirakı ilə, səh. 103 |

| Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər<br><br>Şagird dərk etməlidir ki: | Qiymətləndirmə meyarları<br><br>Şagird bacarır: | Kompleks tapşırığa nisbətən konkretləşdirmə<br><br>İşinizdə/işin təqdimatında xüsusilə göstərməlisiniz: |
|---|---|---|
| **Vətəndaş iştirakı**<br>1. Demokratik cəmiyyət aktiv vətəndaşlardan ibarət demokratik cəmiyyətdir;<br>2. Vətəndaş iştirakı ictimai ehtiyaclara/ölkəyə qayğı vasitəsidir;<br>3. Aktiv vətəndaşlar müxtəlif yollarla (sosial layihələrin planlaşdırılması – həyata keçirilməsi, advokatlaşdırma, lobbiləşdirmə ilə) ictimai problemlərin həllinin qayğısına qalırlar. Bu zaman bir-biri ilə, ictimai qurumlarla, qeyri-hökumət təşkilatları ilə, dövlət strukturları ilə əməkdaşlıq edirlər;<br>4. Vətəndaş iştirakı zamanı digər insanların maraqlarını da nəzərə almaq lazımdır;<br>5. Vətəndaş iştirakı zorakı əməlləri istisna edir. | • Konkret misallara istinad edərək, vətəndaş iştirakının əhəmiyyəti və ehtiyacının əsaslandırılması; vətəndaş iştirakı vəziyyətinə uyğunlaşdırılmış formanın seçimi (**Əs. təs. 1,2**)<br>• Konkret yerli sosial problemlərin həllinə töhfə vermək (**Əs.təs. 3**);<br><br>• Vətəndaş iştirakı prosesində nəzərə alınası amillərin təhlil edilməsi ( **Əs. təs.4,**5) | • Nə üçün cəmiyyətə hüquq mədəniyyəti subyektlərinin funksiyaları və vəzifələri, onların üzləşdiyi problemlər haqqında məlumat lazımdır? (**Əs.təs.1,2**)<br>• Vətəndaşlar subyektlərin üzləşdiyi dilemmaların aradan qaldırılmasına necə (hansı formada) qayğı göstərə/təsir edə bilərlər? Bu nə üçün vacibdir? Nümunələri adlandırın; (**Əs. təs.3**)<br>• Vətəndaşlıq fəallıqlarında və məqalələrdə nə üçün başqalarının hüquqlarını qorumaq və zorakılığı istisna etmək lazımdır? (**Əs.təs.4,5**) |

## Kompleks tapşırığın şərti:

Siz, hüquq mədəniyyətini artırmaq üçün, vətəndaş jurnalistləri kimi, divar qəzeti/bloq yaratmağı qərara almısınız. Bu layihə hüquq mədəniyyəti subyektləri, onların qarşısında duran dilemmalar və vətəndaşlıq fəallığı imkanları haqqında azyaşlıların məlumatlandırılma məqsədini daşıyır. Hüquq mədəniyyəti subyektlərindən (məhkəmə, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, vətəndaşlar) birini seçin və bu iştirakçının hüquq mədəniyyətinin bərqərar edilməsində rolu, onun qarşısında mövcud dilemmalar və onlara reaksiyanın göstərilməsi imkanları haqqında **məqalə/post (250-300 söz)** hazırlayın.

**İşdə/işin prezentasiyasında xüsusilə göstərin:**
• Nə üçün cəmiyyətə hüquq mədəniyyəti subyektlərinin funksiyaları və vəzifələri, onların üzləşdiyi problemlər haqqında məlumat lazımdır? (**Əs. təs.1,2**)
• Vətəndaşlar subyektlərin üzləşdiyi dilemmaların aradan qaldırılmasına necə (hansı formada) qayğı göstərə/təsir edə bilərlər? Bu nə üçün vacibdir? Nümunələri adlandırın; **(Əs.təs.3)**
• Nə üçün vətəndaşlıq fəallıqlarında və məqalələrində başqalarının hüquqlarını qorumaq və zorakılığı istisna etmək lazımdır? (**Əs.təs.4,5**)

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri** (fəallıqlar, resurslar, suallar)

**I mərhələ - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurslar/təhlil ediləsi vəziyyətlər**
- **Resurs 1.** Dərslik, İnsan Hüquqlarının müdafiə mexanizmləri, kompleks tapşırığın şərti, səh. 49
- **Resurs 2. a) Məqaləni necə hazırlayaq;**
  **b)** Məqalə necə yazılır? https: www.living- democracy.com/ge/textbooks/volume-3/part-3/unit-7/student-handout-6/
  **c) Məqaləni necə yazaq?** Baxın: **Əlavə 5, səh. 82**

**Kompleks tapşırığın şərtinin anlayışına yönəlmiş suallar:**
- Məqalə nədir? Bu material üzərində əvvəllər işləmisinizmi? Nədə çətinlik çəkdiniz? Nə asan oldu?
- Məqalənizin və postunuzun ümumi və fərqli xüsusiyyətləri nədir?
- Məqalə hansı məqsədi əks etdirir? Məqalə vasitəsilə hansı nəticəni əldə etmək olar?
- Məqalənizin/postunuzun məzmununu necə planlaşdırarsınız?
- Məqalənin/postun strukturu necə olacaq?
- Siz oxu məqaləsini/postunu hansı əlamətə əsasən seçəcəksiniz?
- Nəyi nəzərə almaq lazımdır ki, media materialınız daha çox marağa səbəb olsun? İnandırıcı şəkildə qəbul edilsin?
- Məqalənin/postun ilkin variantını oxumaq-üzərində düzəliş etmək lazım olacaqmı?
- Necə bir başlıq seçərsiniz?
- Məqalənin/postun vizual materialla tərtibatı üçün nədən istifadə etmək olar?

**Kompleks tapşırıq**

- Öz sözlərinizlə formalaşdırın ki, bu gün verilən və üzərində bir neçə dərs ərzində işləyəcəyiniz tapşırıq nəyə aiddir?
- Əvvəllər oxşar forma və ya məzmundan ibarət tapşırığı yerinə yetirmisinizmi?

**II mərhələ - Kompleks tapşırıq üzərində iş**

Hədəf anayışı – vətəndaş iştirakı
Alt məsələ: hüquq mədəniyyətinin subyektləri

**Addım 1. Nə üçün cəmiyyətə hüquq mədəniyyəti subyektlərinin funksiyaları və vəzifələri, onların üzləşdiyi problemlər haqqında məlumat lazımdır? (Əs. təs.1,2**)

**Resurs**: şagirdərin danışdıqları əhvalatlar

**Fəallıq**: kiçik müzakirə (**bu fəallıq Şagird kitabında verilmir**)
**Suallar**:

- Özünüzün və ya tanışlarınızın mübahisəli vəziyyətə düşdüyünüz bir əhvalatı yadınıza salın. Hüququnuzun pozulduğunu bilirdiniz, amma necə hərəkət edəcəyinizi, kimə və hara müraciət edəcəyinizi bilmirdiniz və ya əksinə: hüquqlarınızı bilirdiniz və müraciət etdiniz də.
- Birinci halda nə hiss edirdiniz: narahatçılıq, çaşqınlıq, acizlik, qəzəb?
- Nə edəcəyinizi necə araşdırdınız? Kimə müraciət etdiniz?
- İkinci halda: haradan məlumatınız var idi ki, belə bir halda kimə müraciət etmək lazımdır?
- Doğrumu davrandınız? Nə üçün belə düşünürsünüz?
- Küçədə polis sizi dayandırdığında və hər hansı bir cinayət əməlində təqsirləndirdiyində necə hərəkət edərsiniz?
- Kimə müraciət edərsiniz? Sizin hüquqlarınızı kim qorumalıdır və necə?

**Müəllimə tövsiyə:** bu fəallıq ötən biliyin yada salınmasına və məsələnin əhəmiyyəti üzrə müzakirə məqsədilə aparılır. Şagirdləri maraqlandıran vəziyyətlərdən istifadə edə bilərsiniz, onlara vəziyyəti oxuyun və hansının qanuni və hansının qeyri-qanuni olduğunu adlandırmağı xahiş edin. Doğru cavab mötərizədə verilir. **Baxın, Əlavə 6., səh.83**

Resurs: dərslik, Məhkəmə hakimiyyəti, səh.89
**Şagird kitabında verilən faydalı resurslar**:

Ədalət prinsipləri https://bit.ly/3o3lr4H
Mən, hakim... https://bit.ly/3yOIYvn
Rut Qinsburqun əhvalatı https://bit.ly/3PszQmG
Hakim Frank Kaprio https://bit.ly/3IHgVCu
Ədalətli məhkəmə, ləyaqətli hakim https://bit.ly/3IEiSzC

**Fəallıq**: qruplarda işləyin, səh. 89
Suallar:
Aşağıda verilən əhvalatla tanış olun və suallara cavab verin:
• İşin gedişini necə qiymətləndirərdiniz? Gürcüstan məhkəməsini dəstəkləmək üçün hansı arqumentdən istifadə edərsiniz (aşağıda verilən konkret hala əsasən)?
• Nə üçün Gürcüstan Məhkəməsinin və BMT-nin Uşaq Hüquqları Komitəsinin qərarları fərqlidir? Nəzərə alın ki, hər iki halda eyni sübutlara baxılırdı?
• BMT-nin Hüquq Komitəsi nəyə əsaslanaraq uşağı dəstəkləmək barədə qərar qəbul edib?
• BMT-nin Uşaq Hüquqları Komitəsinin qərarını diqqətlə oxuyun və yaxşı məhkəmənin hansı xüsusiyyətlərə malik olmasını müəyyənləşdirin? Nəyi əlavə edərdiniz?
• Nə üçün istintaqın sürəti və effektivliyi, ardınca məhkəmə qərarının vaxtında çatdırılması vacibdir? Hökmün uzadılmasının mənfi səbəbləri hansılardır?
• Müstəntiqin təcrübəsini necə qiymətləndirərdiniz?
• Bu vəziyyəti əvvəlki dərsdə müzakirə olunan məhdud imkanlı şəxsin məhkəmə qərarı ilə müqayisə edin. O halda şikayət edən məhdud imkanlı şəxs qanuna əsaslanaraq müvafiq yardım ala bilmirdi və buna yalnız məhkəmə yolu ilə nail ola bildi. Hansı qənaətə gələ bilərsiniz?
• Hökm çıxarılanda hakimin şəxsi xüsusiyyətləri vacibdirmi?
• Demokratik dövlətin vətəndaşları üçün beynəlxalq ədalətin mövcudluğu və əlçatanlığı nə dərəcədə vacibdir?
• Fiziki cəzanı zorakılıq növü hesab edirsinizmi? Cavabı əsaslandırın;
• Sizcə, bu insidentə görə bu qədər səylərə dəyərdimi? Fiziki cəza qanunidirmi?
• Uşağın ailəsini hüquqi mədəniyyətə malik şəxs adlandırmaq olarmı? Cavabı əsaslandırın.

**Fəallıq**: müzakirə edin, səh. 94
Aşağıdakı işi öyrənin və suallara cavab verin:
• Kapitan Beridze nə üçün həbs edildi?
• İlkin ittiham nə ilə əvəz edildi?
• Beridzeyə qarşı təqsirsizlik prezumpsiyası pozulubmu? Cavabınızı əsaslandırın.
• Cəmiyyətdə təqsirləndirilən şəxslərə qarşı mənfi münasibətin yaranmasına media nə dərəcədə şərait yaradır?
• İctimai rəyin iki yerə bölünməsi faktını necə qiymətləndirərdiniz? Onlardan hansının davranışını ədalətli adlandırmaq olar?
• Beridzenin işi hansı hallardan keçdi və hansı nəticələrlə bitdi?
• Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl hansı ilkin şərtlərin olduğunu xatırlayın? Strasburq Məhkəməsi hansı işlərə baxır?
• Strasburq Məhkəməsində vətəndaşın dövlətə qalib gəlməsi və ya Gürcüstan dövlətinin başqa dövlətə qalib gəlməsi ilə bağlı son nümunələri xatırlayın;
• Hüquq mədəniyyəti nöqteyi-nəzərindən Avropa İnsan Hüquqları Məhkəməsinin mövcudluğunu beynəlxalq nailiyyət hesab edirsinizmi?

**Fəallıq**: qruplarda işləyin, səh. 96
Məhkəmə sistemi haqqında məlumatla tanış olun, müzakirə edin:
• Vətəndaşların, o cümlədən yetkinlik yaşına çatmayanların məhkəmə hakimiyyətinin mahiyyəti və funksiyaları haqqında məlumata ehtiyacı varmı? Nə üçün?
• Müşahidələrinizə görə, ətrafınızdakı insanlar bu məlumatı bilirlərmi?
• Vətəndaşlar hakimiyyətin bu qolunun funksiyaları haqqında haradan məlumat əldə edə bilərlər?
• Aktiv vətəndaşların özləri bu cəhətdən maariflənmələrinə qayğı göstərməlidirlərmi? Necə?
• Əgər bu subyektlər kimi vətəndaşları seçsəydiniz, o halda öyrəndiyiniz və məqalənizdə başqaları ilə paylaşmaq istədiyiniz ən vacib nə olardı? Bəs medianı seçsəydiniz?

**Fəallıq**: Yekunlaşdırma

Addımın sonunda kompleks tapşırığa yönəlmiş sualları aktivləşdiririk:

- Hüquq mədəniyyətinin hansı subyektləri haqqında məlumat əldə etdik və müzakirə apardıq?
- Bu subyektləri və onların qarşısındakı dillemmaları xarakterizə etmək üçün hansı məlumat və nəticələr köməyinizə gələcəkdir?
- Əlavə məlumatı daha necə əldə etmək olar?

**Müəllimə tövsiyə**: konstruktivizm prinsiplərini nəzərə alaraq, şagirdlərin öncəki və yeni biliyinin bütövləşdirilməsində, biliklərin təşkilində aşağıda verilən cədvəlin tədricən doldurulması yardım edəcək. Ona kompleks tapşırıq üzrə işin müxtəlif addımlarında yeni məlumat əlavə edilir və bu da hər birinə imkan verir ki, biliklərini möhkəmlətsinlər, subyektlərin xüsusiyyətlərini, qarşılıqlı yanaşmalarını müqayisə etsinlər. Nəticələri isə məqalədə analiz üçün istifadə etsinlər. Bununla da biz təlim prinsipinə və əsas səlahiyyətlərə diqqəti yönəldirik. Cədvəlin üzərində işləsək və böyük vərəqə və ya slayda köçürsək, bu **halda hüquq mədəniyyəti** subyektlərinin məsələsinin tədrisi üçün yaxşı resursumuz olacaq.

| Subyekt | Funksiya-öhdəliklər | Əmək qabiliyyəti | Fəaliyyətlə bağlı dilemmalar | Vətəndaş cəmiyyəti hansı təsiri göstərə bilər və necə? |
|---|---|---|---|---|
| | | | | |
| Ümumi məhkəmə | | | | |
| Beynəlxalq təşkilatlar (Strasburq) | | | | |
| Andlılar | | | | |
| Qeyri-hökumət təşkilatları | | | | |
| ...... | | | | |

**Addım 2.** • Vətəndaşlar subyektlərin üzləşdiyi dilemmaların aradan qaldırılmasına necə (hansı formada) qayğı göstərə/təsir edə bilərlər? Bu nə üçün vacibdir? Nümunələri adlandırın; **(Əs.təs.3)**

**Resurs**: dərslik, məhkəmə hakimiyyəti, səh.99

**Fəallıq**: müzakirə edin, səh. 99
Aşağıda Tomaşın işi ilə tanış olun və suallara cavab verin:
• Mehmanxanın ödəməli olduğu cərimənin o qədər də böyük olmadığı halda, şikayətçi nə üçün bu qədər məhkəmə instansiyasına müraciət etdi?
• Məhkəmə prosesi neçə instansiyada və hansı qaydada keçirildi?
• Konstitusiya Məhkəməsi hansı arqumentlərə əsaslanaraq öz ölkəsinin vətəndaşına bəraət verdi?
• Sizcə, demokratik ölkədə Konstitusiya Məhkəməsinə müraciət etmək nə üçün lazım olur?
• Vəziyyətin qəhrəmanı hüquqi mədəniyyətə malikdirmi ya yox?

**Fəallıq**: Yadınıza salın, səh. 101
Artıq bildiyiniz kimi, Gürcüstan hökuməti üç qoldan ibarətdir. Gürcüstanda daha çox dövlət strukturları var, onlardan bəziləri burada göstərilən sxemdə verilir. Hökumət qollarını xatırlayın və aşağıdakı sxemdən istifadə edərək suallara cavab verin:
• Hər bir hakimiyyət qoluna hansı təsisatlar daxildir: icra, qanunvericilik, məhkəmə;
• Müstəqil vahidlər hansılardır?
• Vətəndaş kimi seçir?
• Parlament kimi seçir?
• Prezident kimi təyin edir?
• Nazirlər Kabineti necə formalaşır?
• Konstitusiya Məhkəməsinin neçə üzvü var?
• Hakim təyin etmək üçün kiminsə təqdimatı və ya tövsiyəsi lazımdırmı?

**Fəallıq:** yadınıza salın, səh. 102
**Suallar**:
• Yadınıza salın ki, əgər ölkəsi ona insan hüquqlarının lazımi səviyyədə müdafiəsini təmin edə bilmirsə, vətəndaş kimə müraciət edə bilər?
• Avropa İnsan Hüquqları Məhkəməsinin (Strasburq) funksiyası nədən ibarətdir?
• Strasburq Məhkəməsi ədalət mühakiməsini hansı sənəd əsasında həyata keçirir?
• Kim və hansı halda Strasburq Məhkəməsinə müraciət edə bilər?
• Əgər şikayət qəbul edilərsə, proses necə davam edəcək?

• Onun icraatına necə nəzarət edilir?

**Tapşırıq**, səh. 102
**Müəllimə tövsiyə**: Şagirdin tapşırığını belə bir təlimat müşayiət edir: "Gələn dərsdə andlıların (prisyajnıların) iştirakı ilə imitasiya edilmiş məhkəmə prosesinin keçirilməsi planlaşdırılır. Aşağıdakı linkdən istifadə edərək "Andlı hakim" bədii filminin üç seriyasına baxın (istəyiniz olduğu halda, epizodları bölüb imitasiya edilən məhkəmə prosesindən əvvəl 5 dəqiqəlik təqdimat edə bilərsiniz). Amma düşünürəm ki, filmlə maraqlanma seriyalara bölmək ehtiyacına səbəb olmayacaq. Filmi izləmək imkanları olmadıqda, şagirdlərdən xahiş edin ki, andlılar haqqında 9-cu sinifdə keçilən məlumatla tanış olsunlar.
"Andlı hakim" filmi, ilk seriyası https://bit.ly/3cyfkD3
"Andlı hakim" filmi, ikinci seriyası https://bit.ly/3z3dRvQ
"Andlı hakim" filmi, üçüncü seriya https://bit.ly/3aTneGM

**Resurs**: dərslik, imitasiya edilmiş məhkəmə prosesi andlıların iştirakı ilə, səh.103
**Şagird kitabında verilən faydalı resurslar**:

Andlılar haqqında məlumat https://3zq2whw/
XIII patrul müfəttişə itaət göstərməmək işi üzrə imitasiyalı məhkəmə işi https://www.youtube.com/watch?v=cb02wWByQQ8
Məhkəmə prosesində kommunikasiyanın ümumi prinsipləri https://www.youtube.com/watch?v=H6mp_5eSOC8

**Fəallıq**: yadınıza salın, səh. 103
**Suallar**:
• Andlılar məhkəmədə hansı funksiyaları-vəzifələri yerinə yetirirlər?
• Onların hansı işləri müzakirə etmək imkanları var?
• Kim andlılar kimi seçilə bilər? Kim yox?
• Andlılar qurumunu demokratik hal hesab edirsinizmi?
• Andlılar ədalət məhkəməsində vətəndaşın birbaşa iştirak formasını təqdim edirmi? Nə üçün?

**Fəallıq**: imitasiya edilmiş məhkəmə, səh. 104

İmitasiya edilmiş məhkəmə prosesinin keçirilməsi üçün mürəkkəb işlə tanış olun (səh.104-116), rolları bölüşdürün və məhkəmə prosesini oynayın. İşdə təqdim edilən şəxslərdən başqa, 12 şagird olmaqla andlılar seçin.

**Müəllimə tövsiyə**: ilk öncə, bu fəallığı keçirib-keçirməyəcəyinizi siz qərara almalısınız. Qərara aldığınız halda, rolları özünüz bölüşdürməlisiniz. Şagirdlərin sayına əsasən andlıların sayını və ya başqa rolları müəyyənləşdirin ki, şagirdlərin hamısı qoşulsunlar. Azsaylı siniflərdə andlıların sayını azaldın, şagirdlərdən hər birinə 2 və ya artıq rol verə bilərsiniz. Sonda, şagirdlərə rollardan çıxmaq üçün hər hansı bir sadə, həvəsli fəallığı (enercayzeri) yerinə yetirməkdə yardım edin. Nəzərə alın: məhkəmə

modelləşdirməsinin səhvsiz aparılması gözləntisini yaratmayın, nöqsanlar, səhvlər olacaq, amma şagirdlər  əsas məlumatı alacaqlar ki, ədalət nə qədər mühüm və məsuliyyətli bir prosesdir, ədalətli qərarın qəbul edilməsi üçün nə qədər bilik, vicdan və səmimiyyət lazımdır və bu prosesdə, bizim bir vətəndaş kimi rolumuz necədir.

**Fəallıq**: qruplarda işləyin (**bu fəallıq Şagird kitabında yoxdur**)

4 qrup yaradırıq, şagirdlərə əvvəlcədən söyləyirik ki, onlar "Ədalət və qurumların bərqərar edilməsinin mülki mexanizmləri" təqdimatı üzərində işləməlidirlər. Buna hazırlaşmaq üçün dərslikdən istifadə edə və eləcə də subyektlər haqqında cədvəllərindən istifadə edə bilərlər, xüsusilə də onun son qrafasının yazılarından. Təqdimatda göstərməlidirlər:

1. Ədalət üzrə məsuliyyət daşıyan qurumlar nə bacarırlar? Əməkdaşlıq imkanları.
2. Vətəndaşlar nə bacarırlar? Əməkdaşlıq imkanları.
3. Qeyri-hökumət təşkilatları, media nə bacarırlar? Əməkdaşlıq imkanları.
4. Beynəlxalq təşkilatlar nə bacarırlar? Əməkdaşlıq imkanları.

**Müəllimə tövsiyə**: bu fəallıqlarda məsələləri qruplar arasında bölün. Hər bir qrup bir sual üzrə işləməlidir, hər bir sualın "dayanacaqlarla tədris" metodu ilə ötürülməsi sizin qərarınızdır. Əsas odur ki, bu prosesdə hər bir subyektin necə iştirak edə biləcəyi haqqında sinifdə müzakirə aparılsın.

**Tapşırıq**

**Suallar:**
Təqdimat hazırlayın: "Mən  - hüquq mədəniyyətli vətəndaşam". Təqdimatda göstərin:

- Hüquq mədəniyyətinə malik vətəndaşın hansı xüsusiyyətləri olmalıdır;
- Sizdə bu xüsusiyyətlərdən hansı var?
- Bu ada həqiqəyən layiq olmaq üçün daha nələr lazımdır?
- Bir şagird kimi, bu baxımdan ətrafınızdakı insanların məlumatlandırılmasını artırmaq üçün nə edə bilərsiniz?

**Addım 3.  Vətəndaşlıq fəallıqlarında və məqalələrdə nə üçün başqalarının hüquqlarını qorumaq və zorakılığı istisna etmək lazımdır? (Əs.təs.4,5)**

**Fəallıq**: tapşırığın sorğusu – müzakirə

**Fəallıq**: sual-cavab, müzakirə

- Başqalarının sizə necə rəftar etmələrini istərdiniz?
- Necə düşünürsünüz, başqaları da eyni rəftarı istəyirlər?
- Ədalət uğrunda ədalətsiz/zorakı yanaşma yollarından istifadə etmək olarmı?

- Media necə hərəkət etməlidir?
- O, zorakı və işgəncəli üsullara müraciət edə bilərmi?
- Korrektiv forma ilə, təhqir etmədən kəskin tənqid etmək olarmı?
- Konstruktiv ünsiyyət qarşı tərəfi əməkdaşlığa yönəltmək üçün imkanı nə dərəcədə artırır?

**Fəallıq**: praktiki iş

Şagirdlərə məqalənin mövzusunu seçmək və ehtimal planı tərtib etmək tapşırılır; könüllülər planı təqdim edir və başqaları əks əlaqə göstərirlər. Könüllülərin istifadə edəcəkləri planın optimal variantı üzrə razılaşırlar. Bu onu bildirmir ki, kiminsə orijinal məqalə hazırlamaq imkanını məhdudlaşdırmalıyıq.

**Diqqət!**
**Kompleks tapşırığın qiymətləndirilməsinin köməkçi aləti, baxın Əlavə 3, səh. 78**

**Kompleks tapşırığın yerinə yetirilmə və prezentasiya prosesində konkret şagirdlə fərdi işin aparılması üçün müəllim tərəfindən verilən suallar**:

- Tapşırıq üzərində iş prosesinin necə davam etdiyini/gedişini təsvir et;
- Verilən cədvəlin hansı məqsədə qulluq etdiyini izah et;
- Təqdim edilən suallar "şagirdlərinə" hansı məsələnin təhlilinə doğru istiqamət verir?
- Kompleks tapşırıq vasitəsilə hansı məsələ haqqında biliyini ifadə etdin?
- Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?
- Kompleks tapşırıq üzərində iş prosesində sizə nə köməklik edəcək?
- Tapşırığı yenidən yerinə yetirsəydin, nəyi dəyişərdin? Nə üçün?

## Aralıq məqsəd 4.

## Aralıq məqsədin strukturu

<table>
<tr><th>Əsas məsələ</th><th>Məhsul</th><th>Müzakirə edilən hadisə/nümunə</th><th>Əsas sual</th><th>Dərslik/əlavə resurslar</th></tr>
<tr><td>Dayanıqlı ədalət uğrunda</td><td>Prezentasiya (elektron/maddi)</td><td>Dayanıqlı inkişafın 16-cı məqsədi. Sülh, ədalət, güclü qurumlar</td><td>Nə üçün ədalət və güclü qurumlara qayğının göstərilməsi təhlükəsiz perspektivin zəmanətidir?</td><td>Paraqraf 10. Yetkinlik yaşına çatmayanların cinayəti, səh. 119<br><br>Paraqraf 11. Sülh, ədalət, güclü qurumlar, səh. 130<br>Paraqraf 12. Prosessual hüquqlar, səh. 134<br>Paraqraf 13. Bərabərlik və ədalət, səh. 145</td></tr>
<tr><td colspan="3">Hədəf anlayışı ilə bağlı əsas təsəvvürlər<br><br>Şagird dərk etməlidir ki:</td><td>Qiymətləndirmə meyarları<br><br>Şagird bacarır:</td><td>Kompleks tapşırığa nisbətən konkretləşdirmə<br><br>İşinizdə/işin təqdimatında xüsusilə göstərməlisiniz:</td></tr>
<tr><td colspan="3">Dayanıqlı inkişaf:<br>1. Resurslardan istifadə etdikdə, cəmiyyətin maraqlarını və gələcək perspektivi nəzərə almaq lazımdır;<br>2. Yerli əməllər qlobal nəticələr gətirir (məs., ətraf mühitə qayğının göstərilməsi bir nəzərdən kiçik hərəkətlərlə başlayır (məs., zibili yerə atmaq, polietilen paketdən imtina etmək)).</td><td>• Konkret halda resursların istifadəsi məsələsini cəmiyyətin müxtəlif qruplarının maraqları və gələcək perspektivlə əlaqələndirməyi (Əs.təs.1)<br>• Yerli hərəkətlərin/təhlükələrin qlobal məqsədlərlə/problemlərlə əlaqələndirilməsi (Əs.təs.2)</td><td>• Ətrafımızda sülh və ədaləti necə bərqərar etmək və hansı imkanları işə salmaq lazımdır ki, hər kəs özü və ətrafındakılar üçün təhlükəsiz perspektiv hiss edə bilsin? (Əs.təs.1)<br><br>• Qlobal nəticələrin (Dayanıqlı inkişafın 16-cı məqsədi) əldə edilməsi üçün kimlər və hansı addımlar atmalıdırlar/atmamalıdırlar? Nə üçün belə düşünürsünüz? Nümunələr gətirərək danışın. (Əs.təs.2)</td></tr>
</table>

**Kompleks tapşırığın şərti**
Təsəvvür edin ki, siz məktəbin vətəndaş klubunun liderlərindən birisiniz və klub üzvlərinə (baza pilləsinin şagirdləri) dayanıqlı inkişafın 16-cı məqsədi haqqında danışmalısınız (məlumata və banerə səh. 118-də baxın). Konkret nümunələr vasitəsilə bu məqsədin əhəmiyyətindən, mövcud çətinliklərdən və ona nail olmaq yollarından danışacağınız **prezentasiya** (elektron, material) hazırlayın.

**Məqalədə/təqdimatda xüsusilə göstərməlisiniz:**

• Ətrafımızda sülh və ədaləti necə bərqərar etmək və hansı imkanları işə salmaq lazımdır ki, hər kəs özü və ətrafındakılar üçün təhlükəsiz perspektiv hiss edə bilsin? (**Əs.təs.1**)

• Qlobal nəticələrin (Dayanıqlı inkişafın 16-cı məqsədi) əldə edilməsi üçün kimlər və hansı addımlar atmalıdırlar/atmamalıdırlar? Nə üçün belə düşünürsünüz? Nümunələr gətirərək danışın. (**Əs.təs.2**)

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri** (fəallıqlar, resurslar, suallar)

**I mərhələ - Kompleks tapşırığın şərti ilə tanışlıq**

**Resurslar/təhlil edilәsi vəziyyətlər**

- **Resurs 1.** Dərslik, Dayanıqlı ədalət uğrunda, kompleks tapşırığın şərti, səh. 117
- **Resurs 2. a)** Elektron təqdimatı necə hazırlayaq https://www.youtube.com/watch?v=QpyRQzoDOUU

**Kompleks tapşırığın şərtinin anlayışına yönəlmiş suallar:**

- Prezentasiya nədir? Ayrı vaxt bu material üzərində işləmisinizmi? Nədə çətinlik çəkdiniz, nə asan oldu?
- Digər materiallarla (məqalə, poster) ümumi və fərqli olan xüsusiyyətləri nədir?
- Prezentasiya hansı məqsədə qulluq edir? Prezentasiya faylı vasitəsilə hansı nəticəni əldə etmək olar?
- Prezentasiyanızın məzmununu necə planlaşdıracaqsınız?
- Onun nə kimi strukturu var?
- Diqqətinizi necə bir təqdimat çəkir?
- Materialınızın daha çox marağa səbəb olması üçün nəyi nəzərə almaq lazımdır? İnandırıcı qəbul edilsin?
- Orta hesabla təqdimatda neçə slayd olmalıdır ki, tamaşaçının diqqəti azalmasın?
- Slaydların vizual materialla tərtibatı üçün nədən istifadə etmək olar?

**Kompleks tapşırıq**

- Öz sözlərinizlə formalaşdırın ki, bu gün verilən və üzərində bir neçə dərs ərzində işləyəcəyiniz tapşırıq nəyə aiddir?
- Əvvəllər oxşar formalı və ya məzmunlu tapşırığı yerinə yetirmisinizmi?

**II mərhələ - kompleks tapşırıq üzərində iş**

**Hədəf anlayışı** – dayanıqlı inkişaf; **Alt məsələ:** dayanıqlı inkişaf məqsədi 16;

**Addım 1. • Ətrafımızda sülh və ədaləti necə bərqərar etmək və hansı imkanları işə salmaq lazımdır ki, hər kəs özü və ətrafındakılar üçün təhlükəsiz perspektiv hiss edə bilsin? (Əs.təs.1)**

**Resurs**: dərslik, Azyaşlıların cinayəti, səh. 119

**Şagird kitabında verilən faydalı resurslar**:

Uşaq və ədalət məhkəməsi https://bit.ly/3PckeE1
Uşaq Hüquqları Məcəlləsi – Gürcüstanda yaşayan hər bir uşaq üçün mühüm mərhələ https://uni.cf/3zbirtr
Gürcüstanda kənarlaşdırma və mediasiya proqramı – real əhvalat https://bit.ly/3oa6C08
Annanın tarixi – 14 yaşına qədər qanun pozuntuları https://bit.ly/3AWyYCO
Prevention Story – Beka and Lasha | Prevensiya – Beka və Laşanın əhvalatı kənarlaşma proqramı https://bit.ly/3AYSYEP
Juvenile Diversion-Mediation Programme https://bit.ly/3Or6ioN
14 yaşına qədər azyaşlılar arasında qanun pozuntuları https://bit.ly/3O6MvKY
Yetkinlik yaşına çatmayanların mühakiməsinin beynəlxalq standartları https://bit.ly/3IXyLBi
Yetkinlik yaşına çatmayanların ədalət məcəlləsi https://bit.ly/3B9STOW
Yeniyetmələr arasında cinayətin qarşısının alınması https://bit.ly/3B9c6ju
Rəqəmsal mühitdə uşaqların fərdi məlumatlarının mühafizə bələdçisi https://bit.ly/3IZ5kPl
Ovçu bilməlidir! Ov haqqında qanun https://bit.ly/3cmjT35
(Yeni başlayan) Ovçunun dərsliyi / Ov haqqında qanun https://bit.ly/3aZyHEE
Ətraf mühitin müdafiə prinsipləri https://bit.ly/3c830ZQ

**Fəallıq:** müzakirə edin, səh. 119

**Suallar**:
Aşağıda verilən əhvalatla tanış olun. Ovçuluq haqqında məlumatdan istifadə edin və suallara cavab verin:
• Sizcə, dostlar hansı qaydanı/qanun/qaydaları pozublar?
• Yetkinlik yaşına çatmayanların silah gəzdirmək hüququ varmı?
• Atalarının silah daşımaq hüququ var idimi?
• Oğlanlar brakonyerliyin cəzalandırıldığını bilirdilərmi?
• Sizcə, niyə ov qanunları/qaydaları mövcuddur?
• Bu, həqiqətən də məhdudlaşdırıcı mexanizmdirmi?
• Nə üçün partlayıcı maddələrdən istifadə etməklə balıq tutmaq olmaz?

• Nə üçün ov mövsümünün qanun/qaydası və müvafiq müddəti var?
• Sizcə, oğlanlar cinayət törədiblərmi?
• Əgər onlar qanunu (silah gəzdirmək, ov etmək, brakonyerlik haqqında) bilsələr və bu qanunlara əməl etsələr, onların təhlükəsizliyi təmin olardımı ya yox?
• Ətraf mühitin mühafizəsi ilə bağlı qanunlar olmasaydı, təbiətimiz necə olardı?
• Sizcə, yetkinlik yaşına çatmayanlar və onların ataları üçün hansı cəza nəzərdə tutulur? Ümumiyyətlə, qeyd edilən iş üzrə istintaq başlanılacaqmı?
• Yeni başlayan ovçuya ov qaydaları və tənzimləmələri haqqında hansı əsas məlumatları verərdiniz?
• Müxtəlif ov məhdudiyyətlərinin məqsədi nədir? Cavabınızı əsaslandırın.
• Yetkinlik yaşına çatmayanlar hansı qanuna uyğun hərəkət edirdilər?
• Bənzər halların qarşısını almaq üçün nə etmək lazımdır?

**Fəallıq**: qruplarda işləyin, səh. 124
4 qrup yaradın, iki qrup birinci vəziyyət üzrə işləməli, ikisi isə ikincinin üzərində. Müvafiq suallara cavab verin.

**Fəallıq**: müzakirə edin, səh. 126

**Suallar**:
• Sizcə, nə üçün yeniyetmələr qanunu pozurlar?
• Nə üçün onlar cinayət törədirlər?
• Bu zaman hansı motivlər və amillər təsir göstərir?
• Kənarlaşdırılma və Mediasiya proqramının nə demək olduğunu xatırlayın? Nə üçün azyaşlılar arasında bunlardan daha çox istifadə olunur?

**Fəallıq**: qruplarda işləyin, səh. 128
3 və ya 6 qrup yaradın, məsələləri paylaşın. Verilən məlumatın əsasında məsələlərə əsasən kiçik tövsiyələrin siyahısını hazırlayın və siniflə tanış edin.

**Fəallıq**: Yekunlaşdırma
**Suallar**:

- Nə üçün azyaşlıların ədalət məhkəməsi yeniyetmənin ən yaxşı maraqlarını nəzərdə tutur?
- Bu yanaşma dayanıqlı inkişafın məqsədləri ilə nə dərəcədə bağlıdır? Necə?
- Qanunu pozan yeniyetmənin inkişafının gələcək perspektivinə qayğının göstərilməsi vətəndaş təhlükəsizliyinə qayğının göstərilməsidirmi?
- Azyaşlıların ədalət mühakiməsi ədalət prinsipinə nə dərəcədə cavab verir? 16-cı məqsədin istiqamətləri ilə əlaqələndirin.

**Resurs**: dərslik, Sülh, ədalət, güclü qurumlar, səh. 130
**Şagird kitabında verilən faydalı resurslar**:

Amerika tarixində istefa verən prezidentlər https://bit.ly/3Sd7WNr

**Fəallıq**: müzakirə edin, səh. 130
Aşağıdakı hekayəni oxuyun və suallara cavab verin:
• Prezident Nikson nə etdi ki, ABŞ Prezident qurumu kimi güclü qurumu sarsıda bildi?
• Bu qanun pozuntusu/pozuntuları nə ilə bağlı idi?
• Prezidentə qarşı hansı dövlət qurumları istintaq aparıb?
• Ali Məhkəmə hansı qərarı qəbul etdi?
• Nə üçün prezident Niksonun impiçment məsələsi ortaya çıxdı?
• O, Niksondan hansı reaksiyanı aldı?
• Yeni prezident Ford keçmiş prezidentlə necə davrandı?
• Nə üçün Niksonun vida nitqi mənalı və təəssüfdən ibarət idi? Sizcə, prezident nəyi nəzərdə tuturdu?
• Dövlət qurumları düzgün və qanuni şəkildə işləyərkən bir şəxsin, hətta prezidentin səhvlərinə/cinayətlərinə dövlət necə reaksiya verir?
• Uotergeyt qalmaqalını Dayanıqlı İnkişaf Məqsədi 16 ilə necə əlaqələndirərsiniz (bax. səh. 118,132).

**Fəallıq**: qruplarda işləyin, səh. 133

4 qrup təşkil edin, 16-cı Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün tapşırıqlardan 1 və ya 2-ni seçin, aşağıda təklif olunan suallara uyğun olaraq qruplarda müzakirə edin və qrupun ümumi fikirlərini təqdim edin.

• Bu tapşırıq hansı məsələləri əhatə edir? Bu məsələlər haqqında nə bilirsiniz?
• Ölkəmizdə bununla bağlı vəziyyət necədir? Güclü və zəif tərəfləri adlandırın.
• Dərslikdən, həyatdan istənilən vəziyyəti dayanıqlı inkişafın 16-cı məqsədi ilə əlaqələndirin.
• Sizcə, nə üçün bu vəziyyət bu məsələyə uyğundur, ümumi, fərqli olan nədir?
• Bu məsələ kimin və hansı hüquqların müdafiəsinə xidmət edir? O, yerinə yetirilənə qədər kimin hüquqları pozulur?
• Əsas səbəblər hansılardır?
• Sizcə, məsələnin öhdəsindən gəlmək üçün nə etmək lazımdır? Nə edə bilər: dövlət, beynəlxalq ictimaiyyət, vətəndaş cəmiyyəti, hər birimiz?

**Təqdimatınızda hansı məlumatlardan və nəticələrdən istifadə edərsiniz və nə üçün?**

**Addım 2. • Qlobal nəticələrin (Dayanıqlı inkişafın 16-cı məqsədi) əldə edilməsi üçün kimlər və hansı addımlar atmalıdırlar/atmamalıdırlar? Nə üçün belə düşünürsünüz? Nümunələr gətirərək danışın. (Əs.təs.2)**

**Resurs**: dərslik, prosessual hüquqlar, səh. 134

**Şagird kitabında verilən faydalı resurslar:**

“İnsanın prosessual hüquqları” https://bit.ly/3cdYitH
Uşaq Hüquqları Konvensiyası (qısaldılmış variant) https://bit.ly/3zcrRVm
Avropa dəyərləri https://bit.ly/3yNe3iY
Avropa İttifaqının tarixi https://bit.ly/3oaAzNU
Avropa İttifaqının strukturu https://bit.ly/3PzZE02
Avropa İttifaqı: tarix, məqsədlər https://bit.ly/3IGfGDE
Bir il vizasız https://bit.ly/3o4cDvz
Avropa İttifaqının səlahiyyətləri https://bit.ly/3uS4CO1
Avropa İttifaqına üzvlük meyarları https://bit.ly/3uUODyB
Assosiasiya sazişinin ümumi icmalı https://bit.ly/3z9GGbm
Assosiasiya Sazişinin həyata keçirilmə prosedurları https://bit.ly/3PkeYyw

**Fəallıq**: müzakirə edin, səh. 134

**Suallar**:
Aşağıdakı əhvalatı oxuyun və suallara cavab verin:
• Mağaza konsultantı və müdiriyyəti uşaqlarla bağlı hansı səhvə yol verdilər?
• Mağaza nümayəndələrinin yerində özünüzü necə aparardınız?
• Uşaqlar hansı səhvə yol verdilər (əgər bunu etdiklərini düşünürsünüzsə)? Valideynlər? Polis? Cavabınızı əsaslandırın.
• Hüquq mədəniyyəti məsələləri haqqında bilik əldə etdikdən sonra uşaqların yerində özünüzü necə aparardınız?
• Sizcə, niyə polis yalnız valideynlər gələndən sonra çağırılıb?
• Nə üçün valideynlər hüquq-mühafizə orqanları ilə əlaqə saxladılar?
• Mağaza rəhbərliyinin uşaqlardan üzr istəməsindən sonra Daxili İşlər Nazirliyində istintaqın başlanılmasını məqsədəuyğun hesab edirsinizmi?
• Əhvalatın qəhrəmanlarından hansının hüquq mədəniyyətinə malik olduğunu deyə bilərsiniz?
• Bu cür ittihamları nə qədər eşitmisiniz?
• Uşaqlar həqiqətən də şokoladları oğurlasalar, ssenari necə baş verə bilərdi?
• Bəlkə son vaxtlar azyaşlılar tərəfindən tez-tez mağazaların qarət edilməsi uşaqların cinayətdə ittiham edilməsinə səbəb olub?
• Uşaqlara münasibətdə təqsirsizlik prezumpsiyası pozulubmu?
• Məcbur etmə faktı üçün nəzərdə tutulmuş Gürcüstan Cinayət Məcəlləsinin 150-ci maddəsinin məzmununu araşdırmazdan öncə, sizcə, bu vəziyyətdə kimin cinayəti görünür?

**Fəallıq**: yadınıza salın, səh. 137

**Suallar**:

- Xalq müdafiəçisini necə və kim təyin edir?
- Xalq müdafiəçisinin nə kimi funksiyaları var?

**Fəallıq**: qruplarda işləyin, səh. 138-139
**Suallar**:
• Aşağıda hüquqlar cədvəli verilir. Hər bir hüquq Gürcüstan Konstitusiyasının müvafiq maddəsinə uyğundur.
• Hər bir hüququn mənasını və onun insan həyatında rolunu yadınıza salın və kiçik prezentasiya hazırlayın.
• Hansı hüquq tam müdafiə olunur və məhdudiyyətsizdir? Sübut edin!

**Tapşırıq**, səh. 143

Faydalı resurslarda verilən birinci linki izləyin və videoçarxa əsasən kiçik təqdimat hazırlayın;

**Resurs**: dərslik, Bərabərlik və ədalət, səh. 144

**Şagird kitabında verilən faydalı resurslar**:
Gender bərabərliyi idmanda və fiziki tərbiyədə https://bit.ly/3o5DK9o
Gender bərabərliyi idmanda https://bit.ly/3AX4kta
Gürcüstanın gender bərabərliyi idmanda https://bit.ly/3zd4xao
Qadınların bərabərliyi https://bit.ly/3PukRsN
Gürcüstanda gender bərabərliyi /Gender Equality in Georgia https://bit.ly/3PsVkjP
Gender stereotipləri https://bit.ly/3omEqr3
Gürcüstanda gender əlaməti ilə cinsiyyət seçimi https://bit.ly/3oncP9a

**Fəallıq**: müzakirə edin, səh. 145
**Suallar**:
“İdmanda gender bərabərliyi” məqaləsindən çıxarışları müzakirə edin və suallara cavab verin:
• Demək olar ki, qadağan edilmiş heç nə yoxdur, qadınlar sevimli idman növü ilə məşğul ola bilərlər. Sizcə, problem yaradan nədir? Nə üçün qadınlar idmandan boyun qaçırırlar?
• Bu əhvalatdan irəli gələrək, hansı gender stereotiplərinin özünü göstərdiyini adlandırın.
• Vəziyyətin qəhrəmanı bu stereotipləri aradan qaldırmaq üçün hansı arqumentlər tapdı?
• Araşdırmadan sonra Nata hansı reallıqla üzləşdi?

• Sizcə, məktəb rəhbərliyi və hökumət idmanda stereotiplərə qarşı nə kimi tədbirlər görməlidir?
• Nataya problemin həllinin hansı yollarını təklif edərdiniz?
• Sizcə, Gürcüstan idmanındakı nöqsanları aradan qaldırmaq üçün qanunvericilik səviyyəsində işləmək lazımdırmı?
• Əgər siz qanunverici olsaydınız, bu nöqsanları aradan qaldırmaq üçün hansı qanunu təsis edərdiniz?
• 2020-ci il Tokio Olimpiadasında qızıl medal qazanan idmançıya dövlətin 1 milyon lari verəcəyi məlum olanda hamı həyəcanlandı. Əgər dövlət qadın idmançılar üçün oxşar mükafatlar təsis edərsə, o halda nə baş verər?

**Fəallıq**: müzakirə edin, səh. 147
**Suallar**:
• İnsan bərabərliyini necə başa düşürsünüz, o, konkret olaraq nədə ifadə olunmalıdır?
• Sizcə, bütün insanların müxtəlif imkanlara və fərqli maraqlara malik olduğu şəraitdə bərabərliyi təmin etmək mümkündürmü?
• Sizcə, dövlətin bu və ya digər hüququ əldə etmək üçün qanunlarla müxtəlif məhdudiyyətlər qoyması və ya öhdəliklər qoyması (məsələn, yaş, peşə, təhsil və s.) bərabərliyin pozulmasıdırmı? Hansı halda?

**Fəallıq**: müzakirə edin, səh. 148
**Suallar**:
• İnsanların qanun qarşısında bərabərliyini məhdudlaşdıracaq hansı məhdudiyyətlərin tətbiq edilə biləcəyinə dair konkret misallar fikirləşin;
• Bərabərlik mövzusu ilə əlaqədar olaraq, ədalətli qanun mövzusunu necə başa düşürsünüz?

Fəallıq: qruplarda işləyin, səh. 150
4 qrup yaradın:
1. Ümumi məhkəmələrin ekspertləri;
2. Konstitusiya Məhkəməsinin ekspertləri;
3. Xalq müdafiəçisinin ekspertləri;
4. Beynəlxalq Məhkəmənin ekspertləri.

Verilmiş vəziyyətlə tanış olun və qrupunuzun səlahiyyətlərinə uyğun olaraq bu vəziyyəti təhlil edəcəyiniz və Qelaya məsləhət verəcəyiniz bir təqdimat hazırlayın.

**Suallar**:
Müzakirə edərkən aşağıdakı suallara cavab verin:
• Yaranmış vəziyyəti necə qiymətləndirərdiniz?
• Qelanın hüquqları pozulubmu ya yox, hansılar? Nə üçün belə düşünürsünüz?

• Səlahiyyətinizə uyğun orqan bu işdə ədalət mühakiməsini həyata keçirə bilərmi? Əgər yoxsa, kimə müraciət etməyi tövsiyə edərdiniz?
• Müştəriniz hansı addımları atmalıdır?
• Hüquqlarını qorumaq baxımından onun hansı gözləntiləri ola bilər?

**Fəallıq**: qruplarda işləyin, səh. 149

Suallar:
Çox vaxt qanunların həyata keçirilməsinə zamanın köhnəlmiş ənənələrinə və stereotiplərinə əsaslanan ictimai rəy mane olur. Bu isə hüquq mədəniyyətinin formalaşmasına mane olur. Müzakirə edin:
• Sizcə, ictimai rəyi dəyişmək üçün hansı mexanizmlər var?
• Maritanı (Q. Leonidzenin "Arzu ağacı") cəzalandıran cəmiyyətə hara və necə "şikayət" edə bilərik?
• Bu cür stereotiplərin dağılması və dəyişdirilməsi prosesinə kim və necə müdaxilə etməlidir?
• Öz mühitinizdə nəyi dəyişə bilərsiniz? Necə?

**Fəallıq**: Yekunlaşdırma-Müzakirə
**Suallar**:

- Martin Lüter Kinqin 1963-cü ildə "Mənim arzum" çıxışını, 50 ildən sonra başqa hüquq mühafizəçilərin arzularını yadınıza salın və indi, 60 ildən sonra siz də ədalətli dövlətdə yaşamaq istədiyiniz arzunuz haqda düşünün.
- Demokratik ölkədə hüquqi dövləti və güclü qurumları kim yaradır?
- Ətrafımızda hətta bir nəfər də ədalətsizliklə üzləşərsə, arzumuzu gerçəkləşmiş hesab edə bilərikmi?
- Biz necə davranırıq, kiməsə qarşı ədalətsizlik göstəririkmi? Bizim yerli əməllərimiz mühiti dəyişirmi? Ölkəni? Dünyanı?
- Ədalət uğrunda nəyi dəyişərsən?

**Müəllimə tövsiyə**: bu müzakirəni cari və öncəki semestrdə keçdiyiniz vəziyyətləri xatırlamaqla genişləndirmək olar. Bu, şagirdlərə müxtəlif təqdimatlar hazırlamağa yardım edəcək.

**Diqqət!**
Kompleks tapşırığın qiymətləndirilməsinin köməkçi aləti, Əlavə 4, səh. 80-də izləyə bilərsiniz

**Kompleks tapşırığın yerinə yetirilmə və prezentasiya prosesində konkret şagirdlə fərdi işin aparılması üçün müəllim tərəfindən verilən suallar**:

- Tapşırıq üzərində iş prosesinin necə davam etdiyini/gedişini təsvir et;

- Verilən təqdimatın hansı məqsədə qulluq etdiyini izah et;
- Təqdim edilən suallar dinləyicilərini/tamaşaçılarını hansı məsələnin təhlilinə istiqamətləndirir?
- Kompleks tapşırıq vasitəsilə hansı məsələ haqqında biliyini ifadə etdin?
- Tapşırıq üzərində iş prosesində hansı maneələrlə qarşılaşdın?
- Kompleks tapşırıq üzərində iş prosesində sizə nə köməklik edəcək?
- Tapşırığı yenidən yerinə yetirsəydin, nəyi dəyişərdin? Nə üçün?

**Əlavə 1**

**İnkişafetdirici qiymətləndirmə aləti**

**Məsələ/ Altməsələ --** Hüquqi dövlət

| **Meyar Hədəf anlayışı** → | **Demokratiya** |
|---|---|
| **Abstrakt səviyyə** ↓<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fənnüstü (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı. |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br>Təqdim olunan **cədvəllər/diaqramlar** həmyaşıdlarının hüquqi və qeyri-hüquqi dövlətin xüsusiyyətlərini müqayisə etmələrini asanlaşdıracaq məlumatları əhatə edir. Fərqləri siyasi sistemlə, qanun yaradıcılığı prosesi ilə, hüquqi məlumatlandırma ilə əlaqələndirir. O, konkret və bariz nümunələr adlandırır, bu xüsusiyyətlərin demokratiya prinsiplərinin həyata keçirilməsi ilə bağlılığını önə çəkir. Təqdimatda **o, dövlətin hüquqi qərarları, cəmiyyətin hüquqi maarifləndirilməsi, hüquqi davranış və demokratiya prinsipləri arasında səbəb-nəticə əlaqəsini ardıcıl şəkildə izah edir. Yerli və beynəlxalq qanunvericilik və onların aktivləşdirilməsi mexanizmləri arasındakı əlaqəni təhlil edir. Bu normaları bilməyin və onlara əməl etməyin vacibliyini insan inkişafı, vətəndaş iştirakı və dayanıqlı inkişaf baxımından izah edir. Hazırlanmış düşündürücü suallar hüquq pozuntusunun mənfi nəticələrini anlamağa və onların aradan qaldırılması yollarını düşünməyə kömək edir.** |
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin öyrənilən məsələ ilə bağlı bir neçə assosiasiyası olsa da, eyni məsələ ilə bağlı ötürülən əhvalatlar nizamlı, ardıcıl görünüşə <u>malik deyil .</u><br>Şagirdin işində bir neçə məlumat təsvir edilir **(o, hökuməti, vətəndaşları, qanunları adlandırsa da, cədvəl nizamlı şəkildə təqdim edilmir və müqayisə əsasında nəticə çıxarmaq imkanını vermir. Təqdim olunan suallar da düşüncə prosesinin təkanına deyil, yalnız biliyin yoxlanılmasına yönəlib. Təqdimatda demokratiyanı adlandırsa da, hüquqi dövlətlə əlaqələndirə bilmir).** |
| **Unistruktur səviyyə** | Şagirdin öyrənilən məsələ ilə bağlı müzakirəsi açar sözlər/başlıqlar üzərində sadə və məntiqi refleksiya ilə məhdudlaşır. |

| | |
|---|---|
| Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Cədvəli təqdim etmir, yalnız qanunun aliliyini adlandırsa da, başqa xüsusiyyətlərə uyğunlaşdıra bilmir. Suallar aydın deyil, **müzakirə parçalarla təqdim olunur və ardıcıl deyil**. |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir.<br>Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 2**

**İnkişafetdirici qiymətləndirmə aləti**

**Məsələ/ Altməsələ** -- Qanun və qanuna riayət etmə/vətəndaş cəmiyyəti

**Kompleks tapşırıq/aralıq nəticəsi 2.**

| **Meyar ↓ Hədəf anlayışı →** | **Cəmiyyət** |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fənnüstü (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı. |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br><br>**Şagirdlər icmanın məlumatlandırılması və münasibətini öyrənmək üçün araşdırma apardılar. Cəmiyyətdə stereotiplərin üzə çıxmasını tənqidi analiz edərək onların qarşısının alınması üçün tövsiyələr hazırladılar. Qanunun effektiv işində vətəndaş cəmiyyətinin (qeyri-hökumət, qurumlar, vətəndaşlar) məsuliyyətinin rolu əks olunur. Hər hansı bir qanun pozuntusu və zorakılıq hüquqların pozulması, çoxsaylı şəxsi və ictimai problemin əmələ gəlməsinin əsası kimi təsvir olunur.**<br><br>**Stereotiplərin qarşısının alınması və təhsil arasında əlaqə göstərilir. Vətəndaş hərəkatının hökumət tərəfindən müxtəlif qanun pozuntularına, cəmiyyətin məlumatlandırma səviyyəsinin artırılmasına təsiri analiz edilir.** |
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagird(lər)in öyrənilən məsələ ilə bağlı bir neçə assosiasiyası var. Vətəndaş cəmiyyətinin rolu və əhəmiyyətini yada salırlar. Stereotipləri və ənənələri adlandırsalar da, passiv vətəndaş cəmiyyəti və qanun pozuntuları arasında səbəb-nəticə əlaqəsini ayıra bilmir. Altməsələ və anlayış/hədəf anlayışı arasında münasibəti göstərə bilmir). |

| | |
|---|---|
| **Unistruktur səviyyə**<br><br>Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | Şagirdlərin öyrənilən məsələ ilə bağlı işlərinin/müzakirələrinin bütövləşdirici xarakteri yoxdur və açar sözlər/başlıqlar üzərində sadə və məntiqi refleksiya ilə məhdudlaşır.<br>Tapşırıqda **qanun pozuntuların, qeyri-hökumət təşkilatlarının** bir aspektini adlandırırlar, amma bu da məzmun kimi formalaşmır, inkişaf etmir. |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir.<br>Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 3**

**İnkişafetdirici qiymətləndirmə aləti**

**Məsələ/ Altməsələ** -- İnsan hüquqlarının müdafiə mexanizmləri/Hüquq mədəniyyətinin subyektləri

**Kompleks tapşırıq/aralıq nəticəsi 3.**

| **Meyar Hədəf anlayışı** → | **Vətəndaş iştirakı** |
|---|---|
| ↓ **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fənnüstü (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı. |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br><br>Şagird məqalənin giriş hissəsində hüquqi mühit yaradan əsas subyektləri, sonra da seçilmiş subyektin funksiya-öhdəliklərini adlandırır, hüquqi qərarın qəbul edilmə prosesində vətəndaş iştirakı imkanlarını icmal edir. Məqalə əsas suala, tapşırıqların meyarlarına cavab verir və həmyaşıdlarına məhkəmə sisteminin xüsusiyyətləri haqqında ardıcıl məlumat verir. **Prosessual hüquqlar istiqamətində hüquqların müdafiə mexanizmləri haqqında danışır. Bu biliyin hüquqların müdafiəsi və cinayətin qarşısının alınması üçün hansı əhəmiyyətinin olduğunu açıqlayır. Bu narrativi konkret vəziyyətləri göstərməklə, izahla və əyani olaraq göstərir.**<br><br>**İctimai ehtiyaca qayğının göstərilməsi və vətəndaşın firavanlığı arasında səbəb-nəticə əlaqəsini açıqlayır.** |
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin öyrənilən məsələ ilə bağlı bir neçə assosiasiyası var. Onun işinin mütəşəkkil, ardıcıl və qarşılıqlı əlaqəli şəkli yoxdur. **Şagird məqalədə bir neçə aspekti sadalayır. İctimai ehtiyacı, yerli və beynəlxalq ehtiyacı, Strasburq məhkəməsini adlandırır**.<br><br>**Aspektlərdən biri və ya hamısını başa düşə bilər, amma onları bütövləşdirə, yanaşmaları göstərə bilmir.** |
| **Unistruktur səviyyə** | Şagirdin öyrənilən məsələ ilə müzakirəsi açar sözlər/başlıqlar üzrə sadə və məntiqi refleksiya ilə məhdudlaşır. |

| | |
|---|---|
| Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | **Şagirdin işi çox qısadır, onu məqalə adlandırmaq olmaz. Müzakirə əsas sözlər/başlıq üzrə (andlıların məhkəməsi) sadə və məntiqi refleksiya ilə aparılır.** |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir.<br>Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 4**

**İnkişafetdirici qiymətləndirmə aləti**

**Məsələ/ Altməsələ** -- Dayanıqlı ədalət üçün/Dayanıqlı inkişafın məqsədi 16: Sülh, ədalət, güclü qurumlar

**Kompleks tapşırıq/aralıq nəticəsi 4.**

| **Meyar** **Hədəf anlayışı** → | **Dayanıqlı inkişaf** |
|---|---|
| **Abstrakt səviyyə**<br><br>Şagird hədəf anlayışı üzərində iş prosesində əldə etdiyi bilik və təcrübəni Milli Kurikulumun **fənnüstü (makro) anlayışları ilə** müqayisə edə bilər. | **Şagird bacardı**: alınan məlumat əsasında, öz məqsədlərini və auditoriyasını (müxtəlifliyi) nəzərə alaraq, məsələ ilə bağlı faktiki material təqdim edən narrativini formalaşdıra bildi; yeni vəziyyətlə bağlı qanunauyğunluqları tapdı və modelləşdirə bildi; tədris materialını digər elmi biliklərlə əlaqələndirdi; sualı öyrənmək və ya tapşırığı yerinə yetirmək üçün strategiyalar seçdi; məsələnin öyrənilməsi onun vətəndaş dünyagörüşünə necə təsir etdiyini təhlil etdi; əldə edilmiş biliklərdən istifadə edərək, özünün və ya ictimai ehtiyaclar üçün aspektləri topladı. |
| **Nisbi səviyyə**<br><br>Şagird bacarır:<br>Hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə dərk etməyi və təhlil etməyi;<br>• hədəf anlayışını əsas təsəvvürlərlə əlaqəli şəkildə təhlil etməyi;<br>konkret hədəf anlayışı ilə bağlı məlumatları kontekstləşdirməyi (fənnin digər hədəf anlayışlarla əlaqələndirilməsi). | **Şagird bacardı**: hədəf anlayışı ilə bağlı faktları və hadisələri tənqidi və bir-biri ilə əlaqəli şəkildə təhlil etməyi və qavramağı; hədəf anlayışlarını əsas təsəvvürlərlə əlaqələndirməyi; alınan məlumatları digər hədəf anlayışları ilə əlaqələndirməyi.<br><br>Hədəf auditoriyasına yönəlmiş təqdimatda Dayanıqlı inkişafın 16-cı məqsədinin mahiyyətini göstərir ki, nə üçün ədalətə və güclü qurumlara qayğının göstərilməsi təhlükəsiz perspektivin təminatıdır. Konkret halları nəzərdən keçirir. Qlobal məqsədləri nəzərə alaraq, qurumların və vətəndaşların necə hərəkət etməli olduqlarını təsvir edir. Y**etkinlik yaşına çatmayanlarla bağlı ədalət mühakiməsinin prinsiplərinə toxunur və bunları qeyri-zorakı cəmiyyətin inkişafına və mülki təhlükəsizliyin perspektivinə dəstək verəcək yerli qərarlar kimi təqdim edir.** |
| **Multistruktur səviyyə**<br><br>Şagirdin nəzərdən keçirilən məsələ ilə bağlı yalnız bir neçə, əlaqəsi olmayan, qeyri-sistemli assosiasiyaları /təsəvvürü var. | Şagirdin öyrənilən məsələ ilə bağlı bir neçə assosiasiyası var. Onun işinin mütəşəkkil, ardıcıl və qarşılıqlı əlaqəli şəkli yoxdur.<br><br>**Təqdimatda bir neçə aspekti sadalayır (yerli və beynəlxalq ədaləti, azyaşlıların cinayətini, ov və balıqçılıq qaydalarını), amma işi mütəşəkkil təqdim edə və həcmini bütövləşdirə bilmir.** |
| **Unistruktur səviyyə** | Şagirdin öyrənilən məsələ ilə müzakirəsi açar sözlər/başlıqlar üzrə sadə və məntiqi refleksiya ilə məhdudlaşır. |

| | |
|---|---|
| Şagirdin müzakirə olunan məsələ ilə bağlı yalnız bir qeyri-struktur assosiasiyası/təsəvvürü var. | **Təqdimat meyarlara cavab verə bilmir, iş çox səthidir, dayanıqlı inkişafın məqsədlərini adlandırsa da, onun müzakirəsi geniş deyil.** |
| **Prestruktur səviyyə**<br><br>Şagirdin sualla bağlı müvafiq məlumatı yoxdur. | Şagird məsələ ilə bağlı sualları / kompleks tapşırığın şərtini düzgün başa düşə bilmir.<br>Şagirdin cavabı yoxdur və ya onun cavabı tapşırığın tələblərinə/meyarlarına ümumiyyətlə cavab vermir; tapşırığı tamamlamadı, yerinə yetirə bilmədi; şərti səhv başa düşdü ... |

**Əlavə 5**

**Məqaləni necə yazmalıyıq?**

1. Məqalə üçün yaxşı başlıq çox vacibdir. O, bütün mətnin məzmununu əks etdirməli, eyni zamanda oxucunun diqqətini cəlb etməlidir.

2. Məqaləni planlaşdırın. Məzmunu (məqalənin nədən bəhs etdiyini) əhatə etməlidir, əsas hissə (giriş, müzakirə) və nəticə (xülasə) olmalıdır.

3. Konkret olmağa çalışın; qısa və aydın cümlələr yazın. Yaxşı məqalə yazmaq üçün 200-300 sözlə əhatə etmək olar. Əks halda, oxucu sona qədər oxumağa tənbəllik edəcək və ya sadəcə oxumaqdan boyun qaçıracaq. Ancaq məqalənin mövzusu daha çox şey tələb edirsə, bu halda maraqlı hissəni ixtisar edərək mətni qısaltmaqdansa, həddi aşa bilərsiniz.

4. Məqaləyə vizual material əlavə edə bilərsiniz: foto, rəsm, sxem, diaqram.

5. Yaxşı məqalənin mətni asan başa düşülən, qrammatik cəhətdən düzgün və xoş oxunulan olmalıdır. Ona görə də yazını bitirdikdən sonra işinizi tənqidi şəkildə nəzərdən keçirmək və səhvləri düzəltmək lazımdır.

6. Məqalə yazmağa başlamazdan əvvəl seçilmiş mövzu ilə bağlı müxtəlif məlumatlar toplamaq lazımdır. Məsələn, müxtəlif ədəbiyyat, ekspert rəyləri ilə tanış olmaq və sizin üçün maraqlı olan ifadələri və məlumatları vurğulamaq lazımdır. Statistikanı seçin. Vizual material tapın. Seçilmiş mövzu ilə bağlı ətrafınızda baş verən prosesləri müşahidə edin.

Hər şey sizin əlinizdə olduqda, nə demək istədiyinizi düşünün, oxucuya izah edin və söyləmək istədiyinizi yuxarıdakı struktura əsasən yerləşdirin.

**Əlavə 6**

**Fəallıq üçün vəziyyətlər**

❖

Mülki geyimli şəxs küçədə uşağı saxlayır. *(hüququ var)*

Kişi: Salam, mən polisəm. Adını və soyadını de! (*hüququ var)*

Uşaq: Zəhmət olmasa, şəxsiyyət vəsiqənizi göstərin! *(hüququ var)*

Kişi: Budur sənəd! (*göstərməlidir)*

Uşaq sənədi götürür və oxuyur. *(hüququ var)*

Polis: Neçə yaşın var? *(hüququ var)*

❖

Uniformalı polis əməkdaşı 16 yaşlı yeniyetməni saxlayır. *(hüquqi var)*

Polis: Salam, adını de. *(hüquqi var)*

Yeniyetmə: Nə baş verdiyini bilmək olarmı? *(hüquqi var)*

Polis: Biz sənə oxşayan oğlan axtarırıq. (*cavab verməlidir)*

Yeniyetmə ad və soyadını deyir.

Polis: Şəxsiyyət sənədin var? *(hüququ var)*

Yeniyetmə: Bəli, buyurun!

❖

Uniformalı polis uşağı saxlayır. *(hüququ var)*

Polis: Salam, mənə şəxsiyyət sənədini göstər. *(hüququ var)*

Uşaq: Buyurun!

Polis: Valideynlərin harada işləyirlər? (*hüququ yoxdur)*

Uşaq: Mənə vəsiqəmi qaytarın. Cavab verməkdən imtina edirəm! (*hüququ var*)

❖

Uniformalı polis azyaşlı Lalini saxlayıb. (*hüququ var*)

Polis: Salam, adını və soyadını de! (*hüququ var*)

Lali: Nə olub? Nə üçün soruşursunuz? (*hüququ var*)

Polis: Bu, uşaq işi deyil! (*hüququ yoxdur)*

Lali: Mən sizə cavab verməyəcəyəm! (*hüququ var*)

**Əlavə 7**

**Müşahidə olunan tədris nəticələrinin taksonomiyası – koqnitiv proseslərə yönəlmiş model** (Vətəndaş təhsili nümunəsində)

**Solo taksonomiyası** (müşahidə olunan dərs nəticələrinin taksonomiyası – ingil. SOLO – Structure of Observed Learning Outcomes), müəlliflərindən biri Con Biqsin qeyd etdiyi kimi, "Əsasən tədris prosesində şagirdin koqnisiyasının artmasının qiymətləndirilməsi üçün nəzərdə tutulub". Model koqnitiv proseslərə daha çox yönəlib, nəinki əldə edilən nəticələrə. Ondan istifadə edərək müəllim şagirdin cavablarını daha yaxşı analiz edə və konkret şagirdin düşüncə prosesində hansı səviyyəyə çatdığını və hansı tərəqqisinin olduğunu daha yaxşı öyrənə bilər. Eyni zamanda, model müəllimlərə şagirdin müşahidə olunası nəticələrini təsvir etmək üçün razılaşdırılmış təriflərdən istifadə etmək imkanını verir. Modeldə koqnisiyanın 5 səviyyəsi verilir: prestruktur, unistruktur, multistruktur, nisbi və genişləndirilmiş mücərrədlik səviyyəsini.

Müşahidə olunan nəticələrin qiymətləndirilməsi metodundan ümumi təhsilin islahatında ("Yeni məktəb modeli") istifadə olunur. Milli Tədris Planında qarşıya qoyulan məqsədlərə uyğun olaraq, islahat şagirdin holistik qiymətləndirilməsini tanıyır. Konstruktivist təlim nəzəriyyəsinə əsaslanan SOLO taksonomiyası müəllimə şagirdin koqnitiv inkişaf prosesini müşahidə etməyə və təlimdə şagirdə kömək edəcək konkret əks əlaqə verməyə imkan verir. Məktubda konkret fənn – vətəndaş təhsili nöqteyi-nəzərindən konkret kompleks tapşırığın icrası zamanı şagirdin düşüncə proseslərinə nəzarət və əks əlaqə imkanlarından danışacağıq.

Milli Tədris Planının fənn standartı şəklində, şagirdin baza səviyyəsində əldə etməli olduğu hədəf anlayışlar (əsas təsəvvürlərlə birlikdə), icbari mövzular (əsas təsəvvürlərlə birlikdə), eləcə də şagirdin baza pilləsi (bu halda) dövründə əldə etməli olduğu nətcələr göstərilir. Həmçinin tədrisin konstruktivist yanaşmaya əsaslandığı (5 prinsip) razılaşdırılır. Sonrakı prosesdə müəllimin yaradıcılığı və seçimi sərbəstdir. Mövzu çərçivəsində özü konkret suallar seçir ki, bu da şagirdin diqqətini aralıq məqsədinə, yəni kompleks tapşırığa yönəltməklə tədris prosesini istiqamətləndirməyə imkan verəcək. Kompleks tapşırığın şərtləri və qiymətləndirmə meyarları elə "bağlanmalıdır" ki, onların həyata keçirilməsi təfəkkür prosesinin inkişafını stimullaşdırsın və stimullaşdırsın və nəticələri müşahidə etməyə imkan versin. Müəllimin müşahidə və maraq mövzusunu şagirdin idrak prosesi təqdim edir, çünki yalnız bu "kürədən" keçirilən biliklər uzunmüddətli yaddaşda bərqərar ola və istənilən vaxt və yerdə, bu bilikdən istifadə etmək ehtiyacı yarandığı yerdə aktivləşə biləcək şərti biliyə çevrilə bilər.

**Kompleks tapşırıq**

Sinif - **doqquzuncu**;

İcbari mövzu - **Mərkəzi hakimiyyət**;

Sual: **Yol hərəkətinin təhlükəsizliyi**;

Hədəf anlayışı: **Vətəndaş iştirakı.**

**Tapşırığın şərti** :
Təsəvvür et ki, tranzit magistral sizin şəhərinizdən/qəsəbənizdən/kəndinizdən keçir; burada yeraltı keçid olmadığından və piyadalar magistral yola çıxmağa məcbur olduğundan, əhali üçün təhlükə yaranır.
Yeraltı keçidin tikintisi ilə bağlı hökumətə petisiya hazırlamalısan;

Tapşırığı yerinə yetirməzdən öncə tanış ol:
**Yol hərəkəti təhlükəsizliyi haqqında** Qanunun 35-ci maddəsi ilə;
**Petisiyala portalı** və onun imkanları ilə.

**İşinin təqdimatında xüsusilə göstərməlisən:**
• Bu vəziyyətdə vətəndaşların fəal iştirakı nə üçün lazımdır və biz hansı formada iştirak edirik;
• Hansı quruma petisiya ilə müraciət edəcəksən və nə üçün?
• *Yol hərəkəti təhlükəsizliyi probleminin aktuallığı və onun həlli zərurəti;*
• *Vətəndaşların bu problemin həllinə baxışı və gözlənilən faydalar* ;

**Təqdimatdan sonra danışın:**

- Tapşırıqın icrası zamanı atılan addımlar və tədbirlər haqqında;
- Nə asan oldu, nədə çətinlik çəkdin?
- Yenidən petisiyanı tərtib etsəydin, nəyi yaxşılaşdırardın?
- Hansı qənaətə gələ bildin ? Bu təcrübəni harada istifadə edə bilərsən?
- Gələcəkdə bu məsələlərlə bağlı nəyə aydınlıq gətirmək istərdin?

Kompleks tapşırığın şərti ilə tanışlıqdan və başa düşüldükdən sonra müəllim şagirdlərin düşüncə proseslərinin stimullaşdırılmasına və onları tədricən SOLO taksonomiyanın yuxarı səviyyəsinə çatdırmağa xidmət edən fəallıqlar keçirir və bunun üçün də işçi **suallar blokları** hazırlamalıdır, çünki təlimdə şagirdin konstruktivizmin subyektiv rolunun qorunub saxlanılması üçün tövsiyə edilən “inşaat taxtaları” rolunu ən yaxşı şəkildə oynayan belə bir yönləndirici suallardır**.**

Bu sualların məzmunu müəllimə kompleks tapşırığın təqdimatından sonra əks əlaqə verilməsində yardım edəcək ki, məsələn, multistruktur səviyyənin öhdəsindən gələ bilən şagirdə yanaşmaları dərk etmək üçün konkret məsləhət versin. SOLO taksonomiyasında səviyyələrə uyğun olaraq, müəllim tapşırığı tərtib etdikdə, qiymətləndirmə meyarlarını tərtib etdikdə, əls əlaqə zamanı tövsiyə edilmiş feillərdən və ifadələrdən istifadə etsin.

Məsələn, cədvəl şəklində verilmiş təsvirləri təqdim edirik:

| **Səviyyələr** | **Ümumi təsvirlər;**<br>**müvafiq fel və ifadələr** | **Bu kompleks tapşırığa uyğun təsvirlərin nümunələri** |
|---|---|---|
| **Genişləndirilmiş mücərrədlik səviyyəsi** | Şagirdin cavabı verilən/təklif olunan anlayışın əsas cəhətlərini və onlar arasındakı əlaqəni/münasibəti özündə əhatə etməklə yanaşı, bütün bunları ümumiləşdirir, verilәndən kənar strukturlarla əlaqələndirir, digər sahələrlə bağlı fikir və strukturlar formalaşdırır, sualı ümumiləşdirir, ehtimallarla paylaşır....<br><br>**Müvafiq fel və ifadələr:**<br>ümumiləşdirmək, proqnozlaşdırmaq, qiymətləndirmək, düşünmək / əks etdirmək , fərziyyələr irəli sürmək, nəzəriyyə formalaşdırmaq, yaratmaq, yoxlamaq, təsdiqləmək, əsaslandırmaq, yaratmaq, prioritetlərin qarşıya qoyulması, tərtib etmək, təmsil etmək ( ifadə etmək), izah etmək, tətbiq etmək, təhlil etmək;<br><br>“Bu məsələlərdən irəli gələrək, mənim bəzi fikirlərim var...” , “ayrı-ayrı nəticələrə əsaslanaraq, ümumi nəticə çıxara bilərəm...” , “Məsələyə başqa bucaqdan baxsaq, başqa bir sahə ilə əlaqənin olduğunu görərik... ”. | Şagirdin cavabı nəinki hədəf anlayışı – vətəndaş iştirakının əsas aspektləri arasında yanaşmaları tam təsvir edən tapşırığın şərtinə uyğun ətraflı və düşünülmüş məzmunu əhatə edir, eləcə də ötən müzakirə əsasında konkret tapşırığın və sahənin arealından çıxır və məsələni ümumiləşdirən fikirlər bildirir (məsələn, qeyd edir ki “magistralda beynəlxalq nəqliyyat keçdiyinə görə, yerli və xarici ölkə vətəndaşları ziyan görə bilərlər, yüklərin sahibi olan təşkilatlara iqtisadi zərər dəyə bilər. Bu, dayanıqlı inkişaf nöqteyi-nəzərindən də, beynəlxalq müqavilələrin müdafiəsi nöqteyi-nəzərdən də risklər yaradır”) və ya: sübutlu ehtimal söyləyə bilərəm ki, problemin vaxtında həll edildiyi halda, vətəndaşlar və hakimiyyət arasında etimad yaranır, nəticənin yetişməsi vətəndaşların motivasiyasını artırır ki, aktiv olsunlar, təşəbbüslər göstərsinlər...”). |
| **Nisbi səviyyə** | Şagirdin cavabı yalnız hədəf anlayışının, mövzunun əsas aspektlərinin siyahısını deyil, həm də onlar arasındakı əlaqəni / yanaşmaları əhatə edir. Birləşdirilmiş nəticələr və anlaşma ayrı-ayrı aspektlərin inteqrasiyası ilə əldə edilir.<br>**Müvafiq fel və ifadələr:**<br>ardıcıllıq, təsnifat , oxşarlıqları və fərqləri aşkar etmək, açıqlamaq (səbəb və nəticələr ) və təhlil etmək, analogiya | Cavabda şagird danışdığı aspektlər arasında əlaqə qurur. O, qeyd edir ki, vətəndaş iştirakçılığı müxtəlif formalarda özünü göstərir və petisiya problemin düzgün seçilmiş adresatla və ya adresatlarla hakimiyyət qarşısında advokatlaşdırma formalarından biridir. İctimai ehtiyaclar, hökumətin öhdəlikləri, təklif olunan yollar və gözlənilən faydalar arasında səbəb əlaqəsini müzakirə edir . |

| | | |
|---|---|---|
| | gətirmək , təşkil etmək, fərqi tapmaq , suallar vermək, əlaqə yaratmaq, tətbiq etmək , təsvir etmək;<br><br>“Bu aspektlər bir-biri ilə sıx bağlıdır, çünki...” , “Mən bu cəhətlər arasında səbəb əlaqəsi görürəm...” , “Biz həm uyğunluq, həm də ziddiyyət görə bilərik, məsələn...”. | |
| **Multistruktur səviyyə** | Şagirdin cavabı bir sıra vacib məqamları gündəmə gətirir, lakin onlar ayrı-ayrılıqda nəzərdən keçirilir, onlar arasında heç bir əlaqə/istiqamət görünmür, anlayış səthi olur.<br>**Müvafiq fel və ifadələr:**<br>təsvir etmək, sadalamaq, planlaşdırmaq, tamamlamaq, davam etdirmək, birləşdirmək, saymaq;<br><br>« Mən bir neçə aspekti ayıra bilərəm... » | Şagird sualların siyahısını tərtib edir, terminlərdən adekvat istifadə edir (yeraltı keçidin təşkili ictimai ehtiyacdır, fəal vətəndaş kimi petisiya yazmaq qərarına gəlib ..., lazım gələrsə, yeraltı keçidin təşkilində iştirak edəcək. ...), lakin o, bu məsələlər arasındakı əlaqəni müəyyən edə bilmir və vətəndaş fəallığı ilə ictimai fayda və ictimai ehtiyaclar arasındakı əlaqənin necə olduğunu təsəvvür edə bilmir. |
| **Unistruktur səviyyə** | Şagirdin cavabı çox qısadır və yalnız bir vacib aspekti əhatə edir, səthi anlayışa malikdir.<br>**Müvafiq fel və ifadələr:**<br>müəyyən etmək, eyniləşdirmək, adlandırmaq, çıxarmaq, axtarmaq, qeyd etmək, tənzimləmək / əlaqələndirmək, sadə bir prosedura əməl etmək;<br><br>“Bu mövzuda bir şeyi qeyd edə bilərəm...” | Şagird vətəndaş fəallığı ilə bağlı ayrı-ayrı terminlərdən düzgün istifadə edir, fəal vətəndaşı qeyd edir, yeraltı keçidin təşkilini ictimai ehtiyac adlandırır, lakin bu söhbət fraqmentar və səthi xarakter daşıyır. |
| **Prestruktur səviyyə** | Şagirdin cavabı yoxdur, ya da cavabı reallıqdan tamamilə uzaqdır. | Şagirdin cavabı sualdan çox kənara çıxır və ya vətəndaş iştirakı ilə bağlı terminlərdən uyğun şəkildə istifadə edə bilmir və ya qeyri-adekvat istifadə edir (vətəndaş iştirakı, ictimai ehtiyaclar, ictimai rifah, advokatlaşdırma, könüllülük...) |

Kompleks tapşırığın refleksiyasında verilən suallar həm də təfəkkür proseslərini aktivləşdirməyə xidmət edir və özünüqiymətləndirmənin və təlim prosesinin irəliləyişi istiqamətində iş aparır ki, şagird özü qazandığı təcrübəni ümumiləşdirsin və təlimin təkmilləşdirilməsi üçün nəticə çıxarmağa alışsın.

http://mastsavlebeli.ge/?p=26986

Onlayn qəzet : mastsavlebeli.ge